Təsisçi: Daşkəsən Rayon İcra Hakimiyyəti və qəzetin jurnalist kollektivi

Qəzet 1933-cü ildən çıxır | № 5 (5818) | İyun-iyul 2018-ci il | Qiyməti 60 qəpik

PREZİDENT İLHAM ƏLİYEV: "AZƏRBAYCAN ORDUSU TORPAQLARIMIZI İŞĞALDAN AZAD ETMƏK GÜCÜNDƏDİR, QƏLƏBƏ BAYRAĞIMIZI ŞUŞADA, XANKƏNDİDƏ DALĞALANDIRMAQ İQTİDARINDADIR"

2016-CI İLİN APREL DÖYÜŞLƏRİNDƏ, 2018-Cİ İLİN NAXÇIVAN ƏMƏLİYYATINDA İŞĞALÇILARDAN AZAD EDİLMİŞ TORPAQLARDA AZƏRBAYCAN BAYRAĞI QALDIRILDI. BUNUN ÇOX BÖYÜK MƏNƏVİ ƏHƏMİYYƏTİ VAR. HƏMİN O BAYRAQLAR BU GÜN BU PARADDA, AZADLIQ MEYDANINDA NÜMAYİŞ ETDİRİLƏCƏK. BU BAYRAQLAR HƏRBÇİLƏRİMİZİ QABAĞA APARIRDI. BU BAYRAQLAR DÖYÜŞDƏ OLAN BAYRAQLARDIR. BU GÜN BU BAYRAQLAR AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ TORPAQLARINDA DALĞALANIR VƏ BU PARAD ÜÇÜN BURAYA GƏTİRİLİB. GÜN GƏLƏCƏK VƏ BU GÜN İŞĞAL ALTINDAKI TORPAQLAR AZAD OLUNANDAN SONRA ORADA QALDIRILACAQ AZƏRBAYCAN BAYRAĞI AZADLIQ MEYDANINA GƏTİRİLƏCƏK VƏ HƏRBİ PARADDA GÖSTƏRİLƏCƏK. BİZ BU MÜQƏDDƏS GÜNÜ YAXINLAŞDIRMALIYIQ VƏ YAXINLAŞDIRIRIQ.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
BAKI ŞƏHƏRİ, 26 İYUN 2018-Cİ İL

DAŞKƏSƏN RAYONU 2018-Cİ İLİN BİRİNCİ YARIMİLİNİ UĞURLA BAŞA VURUB

İyulun 12-də Daşkəsən rayonunda 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon yığıncağı keçirilib.

Daşkəsən Rayon İcra Hakimiyyətinin inzibati binasında keçirilmiş yığıncaqda ümumilikdə 220 nəfər olmaqla, rayonun idarə, müəssisə, təşkilat rəhbərləri, RİHB-nin inzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Yığıncağı giriş nitqi ilə açan Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev son günlər ölkəmizdə baş vermiş qətl və terror hadisələrinə toxunub:

- İcazə verin hesabat məruzəsinə başlamazdan əvvəl son günlər Gəncə şəhərində baş vermiş hadisələrlə bağlı münasibət bildirim.

İyulun 3-də ölkədəki sabitliyi, ictimai asayişi pozmağa çalışan əvvəlcədən hazırlıqlı cinayətkar, kriminal yönümlü şəxs Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə və bir polis əməkdaşına qarşı məqsədyönlü şəkildə planlaşdırılmış terror aktı törədib.

Gəncə şəhərində iyulun 10-da isə insanları konkret yeri və vaxtı göstərilərək qanunsuz etiraz aksiyaları keçirməyə təhrik edən radikal dini yönümlü qüvvələr iğtişaş törətməyə cəhd göstəriblər. Hadisə zamanı radikal dini təmayüllü bir qrup şəxsin küt və kəsici-deşici alətlərlə xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarına hücum etməsi nəticəsində 2 polis zabiti qətlə yetirilərək şəhid olublar.

Azərbaycana düşmən münasibətdə olan məkrli qüvvələrin bütün cəhdlərinə baxmayaraq, hadisə ölkədə heç bir çaxnaşma, xaos, qarşıdurma yaratmadı. Çünki Azərbaycan hökuməti əhalinin təhlükəsizliyini qətiyyətlə təmin etmək iqtidarındadır, dövlət etibarlı əllərdədir.

Xalqımızın belə məqamda dövlətə dəstək olması, yüksək şüurluluq, həmrəylik göstərməsi, ölkədəki sabitliyi pozmağa çalışan qüvvələrin çağırışlarını birmənalı olaraq pisləməsi çox mühüm tarixi bir missiyanı - Gəncə sakinlərinin dövlətə, iqtidara, hakimiyyətə olan inamını, etimadını bir daha da təsdiqlədi.

Müasir dövrdə iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, heç bir dövlət terrordan sığortalanmayıb. Bütün bunlara baxmayaraq, Azərbaycanda ictimai-siyasi sabitlik yüksək səviyyədə təmin olunub, xalq-iqtidar birliyi də sarsılmazdır və əbədidir.

Ölkəmizin inkişafı və tərəqqisi yolunda çalışan Gəncə şəhər İcra Hakimiyyətinin Başçısı hörmətli Elmar Vəliyevə Allahdan şəfa diləyir və onun tezliklə sağalıb bizim sıralarımıza və ailəsinə qayıtmasını arzulayırıq.

İyulun 10-da Gəncə şəhərində ictimai asayişi, sabitliyi pozmağa cəhd göstərmiş radikal dini təmayüllü bir qrup şəxslərin polis əməkdaşlarına küt və kəsici-deşici alətlərlə hücum etməsi nəticəsində 2 polis zabitinin şəhid olması hadisəsini təəssüf hissi ilə yad edərək kədərlənirik, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk.

Xahiş edirəm gəlin bu hadisə nəticəsində şəhid olmuş polis zabitlərinin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin!

Ruhları şad olsun!

Sonra Əhəd Abıyev hesabat məruzəsi ilə çıxış edib. O, məruzəsində deyib:

- Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin son on beş il ərzində uğurlu siyasətinin nəticəsində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edib, əhalinin rifahı yüksəlib, xüsusilə ölkəmizdəki sabitlik, sürətli inkişaf və beynəlxalq miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artıb, yeni-yeni nailiyyətlər, qələbələr qazanılıb. Ölkəmiz regionda lider dövlətə çevrilmişdir.

Azərbaycan xalqının 2018-ci ilin 11 aprel seçkisində seçimi son on beş ildə cənab Prezident İlham Əliyevin uğurlu siyasətinə, ölkədə inkişaf və tərəqqiyə verilən qiymətin bariz təzahürüdür (seçkilərdə ölkə vətəndaşlarının 74,3 faizi iştirak etmiş, onlardan 86,02 faizi cənab İlham Əliyevin namizədliyini dəstəkləmiş, səs vermişlər).

Aprelin 11-də keçirilmiş Prezident seçkisi bir çox beynəlxalq təşkilatlar və müşahidəçilər tərəfindən yüksək qiymətləndirilmiş və iqtidarın demokratiya, qanunun aliliyi, insan hüquqlarına hörmət, hüquqi demokratik dövlətin əsaslarını möhkəmləndirilməsi kursunun dəyişməzliyinə sədaqətini əyani şəkildə nümayiş etdirmişdir.

Prezident seçkilərində daşkəsənlilər xüsusi fəallıq göstərmiş, Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, müstəqil Azərbaycan Respublikasını işıqlı gələcəyə aparan cənab İlham Əliyevə sevgilərini bir daha nümayiş etdirərək seçkidə iştirak etmiş, seçicilərin 85,56 faizi səs vermişdir.

Prezident seçkilərində möhtərəm cənab İlham Əliyevin qazandığı bu parlaq, inamlı qələbə münasibətilə Daşkəsən şəhərində aprelin 12-də geniş konsert-mitinq tədbir keçirilmişdir.

2018-ci ilin birinci yarısı da əvvəlki illər kimi sosial-iqtisadi cəhətdən respublikamız üçün uğurlu illərdən biri olmuşdur.

Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə iyulun 8-də Prezident sarayında Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında birinci yarımilin sosial-iqtisadi inkişafı geniş təhlil edilərək, qarşıda duran vəzifələr göstərilmişdir.

Ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu daxili və xarici siyasət, həyata keçirilən tədbirlər nəticəsində 2018-ci ilin birinci yarısında da Azərbaycan Respublikasında dinamik inkişaf davam etmiş, beynəlxalq aləmdə ölkəmizin nüfuzu daha da artmış, mövqeləri daha da möhkəmlənmişdir.

Prezident cənab İlham Əliyev iclası giriş nitqi ilə açmışdır.

O demişdir:

...” İlin altı ayında qarşıda duran bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz dinamik inkişaf templərini saxlaya bildi. Bu il Azərbaycan həm iqtisadi, həm beynəlxalq siyasət sahələrində uğurlar əldə etmişdir.

Aprel ayında keçirilmiş prezident seçkiləri bir daha onu göstərdi ki, Azərbaycan xalqı bizim siyasətimizə çox böyük dəstək verir. Seçkilərdə qazandığım inamlı qələbə onu göstərir ki, son 15 il ərzində görülmüş işlər Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Bu böyük dəstək bizə imkan verəcək ki, bundan sonra da ölkəmizi inkişaf yolu ilə inamla irəliyə aparaq.

Seçkilərdən əvvəl keçirilmiş rəy sorğuları, seçkilər günü keçirilmiş “exit-poll”lar rəsmi nəticələrlə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilərdə Azərbaycan xalqının iradəsi tam öz əksini tapmışdır. Seçkilər şəffaf, ədalətli şəkildə keçirilmişdir və Azərbaycan bütün dünyaya bir daha göstərmişdir ki, müasir, demokratik ölkədir. O ölkədir ki, burada bütün azadlıqlar təmin edilir.

Seçkilərə kölgə salmaq istəyənlər isə növbəti dəfə iflasa uğradılar. Onların sönük cəhdləri Azərbaycan cəmiyyəti tərəfindən qəbul edilmədi. Onların hərəkətləri cəmiyyət tərəfindən rədd edildi. Bunun bariz nümunəsi odur ki, seçkilərdən sonra keçirilmiş “etiraz” mitinqinə min nəfərdən çox adam yığa bilməmişlər. Bu, onların növbəti iflasıdır, bir daha onu göstərir ki, xalq bizim siyasətimizə alternativ siyasət görmür, onu qəbul etmir və bundan sonra da xalq bizim siyasətimizi dəstəkləyəcək. Bizim siyasətimiz isə xalqın maraqlarını təmin edən siyasətdir. Bizim siyasətimiz müstəqillik

siyasətidir, inkişaf siyasətidir. Məhz bizim apardığımız siyasət nəticəsində Azərbaycan son 15 il ərzində çox böyük və şərəfli yol keçmişdir, bütün göstəricilərə görə dünya miqyasında çox yüksək yerlərdədir.

Seçkilərdən sonra bir çox ölkələrin dövlət və hökumət başçıları mənə təbrik məktubları göndərmişlər. Onların arasında dünyanın bütün aparıcı ölkələrinin dövlət və hökumət başçıları vardır. Bu, bir daha onu göstərir ki, beynəlxalq birlik Azərbaycana böyük hörmətlə, böyük inamla yanaşır və Azərbaycanda gedən demokratik proseslər dünya birliyi, dünyanın aparıcı dövlətləri tərəfindən yüksək qiymətləndirilir...

...Bu ilin göstəriciləri isə onu deyir ki, əvvəlki illərdə apardığımız islahatlar və bu il aparılan islahatlar gözəl nəticələr verir. Mən bəzi rəqəmləri Azərbaycan ictimaiyyətinə çatdırmaq istərdim. Beləliklə, altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz artmışdır. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorumuz 2 faiz artmışdır. Sənaye istehsalı 1 faiz artsa da, bu da məqbul rəqəmdir. Qeyri-neft sənayemiz 8,8 faiz artmışdır. Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir.

Kənd təsərrüfatı 7,6 faiz artmışdır. Xüsusilə bitkiçiliyi qeyd etmək istərdim. Bitkiçilik 14 faizdən çox artmışdır. 67 min yeni iş yeri yaradılmışdır. Onlardan 58 mini daimi iş yeridir. Ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulmuşdur. İnflyasiya cəmi 3 faizdir. Əhalinin pul gəlirləri 9,3 faiz artmışdır. İnflyasiyanın aşağı səviyyədə olması onu göstərir ki, ölkəmizdə makroiqtisadi sabitlik tam təmin edilir.

Xarici ticarət dövriyyəsi 35 faiz artmışdır. İxrac 34 faiz, o cümlədən qeyri-neft ixracı 20 faiz artmışdır. Xarici ticarətin müsbət saldosu 4,2 milyard dollardır, əlbəttə ki, ilin sonuna qədər daha da artacaq. Bu, çox böyük rəqəmdir, bir daha onu göstərir ki, makroiqtisadi sabitlik tam təmin edilir.

Bir sözlə, əsas iqtisadi göstəricilərimiz bundan ibarətdir. Əlavə edək ki, ilin əvvəlindən valyuta ehtiyatlarımız da artıb və bu gün ölkəmizin valyuta ehtiyatları 44,3 milyard dollar təşkil edir. İlin sonuna qədər bu rəqəm daha da böyüyəcək. Bu, onu göstərir ki, biz çox inamla inkişaf edirik. İqtisadi inkişaf davam etdiriləcək. Sənaye, kənd təsərrüfatı sahələrində bu il böyük işlər görülübdür. Artıq gözəl nəticələr var. Bu barədə bir qədər sonra danışacağıq. Əminəm ki, ilin sonuna qədər yaxşı nəticələr olacaqdır. Beləliklə, ölkəmizin dinamik inkişafı təmin edilir”.

Respublikamızın digər rayonlarında olduğu kimi Daşkəsən rayonunda da 2018-ci ilin 6 ayı ərzində bir çox uğurlu işlər və nailiyyətlər əldə olunmuşdur.

Belə ki, iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən müxtəlif sahələr üzrə xeyli artmışdır.

Rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüşdür və hazırda da həmin işlər davam etdirilməkdədir.

Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən “Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması” işlərində son tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhərinin çox hissəsi (90,7 %) ekoloji cəhətdən təmiz və fasiləsiz olaraq içməli su ilə təmin olunur.

Möhtərəm Prezident cənab İlham Əliyev “Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2754 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalamış, həmin Sərəncama əsasən Daşkəsən şəhəri Alunitdağ qəsəbəsi içməli su ilə təminatının yaxşılaşdırılması nəzərdə tutulan yaşayış məntəqələrinin siyahısına əlavə olunmuş və həmin sahə üzrə müəyyən işlər görülmüşdür.

Xoşbulaq kənd həkim məntəqəsində təmir işləri aparılmışdır.

Şahvəlli kənd ümumi orta məktəbində yeni modul tipli məktəb binası quraşdırılır.

Azərbaycan Respublikası Prezidentinin Ağstafa, Daşkəsən, Gədəbəy, Göygöl, Tovuz və Şəmkir rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında 5 aprel 2018-ci il tarixli Sərəncamı olmuşdur. Sərəncama əsasən Daşkəsən rayonunun Almalı kəndində və Daşkəsən qəsəbəsində hər birində 56 şagird yerlik, Gurbulaq kəndində isə 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması nəzərdə tutulmuşdur.

2018-ci ildə Daşkəsən şəhərində 7 çoxmərtəbəli yaşayış binasının təmiri nəzərdə tutulmuş və artıq həmin işlərin icrasına, eyni zamanda Daşkəsən şəhərində tikinti-təmir, abadlıq işlərinə, o cümlədən istinad divarlarının təmir işlərinə başlanılmış və hazırda həmin işlər davam etdirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində, Qabaqtəpə və Dəvrallı kəndlərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 4 fərdi yaşayış evinin və Fövqəladə Hallar Nazirliyinin xətti ilə Alunitdağ və Yuxarı Daşkəsən qəsəbələrində, Quşçu kəndində evləri qəza vəziyyətində olan vətəndaşlar üçün 3 fərdi yaşayış evinin tikintisinə başlanılmışdır.

Kommunal Müəssisələr Kombinatının maddi-texniki bazası möhkəmləndirilmiş, lakin şəhərin kənar küçələrinin təmizlənməsi, şəhərdən tullantıların yığılaraq daşınması və zərərsizləşdirilməsi sahəsində aidiyyəti üzrə əlavə tədbirlər görülməsinə ehtiyac vardır.

Novruz bayramı ərəfəsində Heydər Əliyev Fondunun hesabına Daşkəsən rayonu ərazisində yaşayan 422 aztəminatlı ailəyə bayram sovqatı paylanmışdır.

Altı ay ərzində rayon ərazisində bir sıra mədəni-kütləvi tədbirlər keçirilmişdir.

Daşkəsən şəhərinin Heydər Əliyev meydanında 16 mart 2018-ci il tarixdə qədim, milli bayramımız olan Novruz bayramı minlərlə rayon sakininin iştirakı ilə yüksək səviyyədə keçirilmiş, rayon ərazisində olan “N” saylı hərbi hissənin əsgərlərinə bayram sovqatları verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən növbəti maarifləndirici tur-aksiyalara start verilmiş, Daşkəsən rayonundan 40 nəfər məktəbli “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyası çərçivəsində 26-29 mart 2018-ci il tarixlərdə Qəbələ-Şəki-Zaqatala marşrutunun iştirakçıları olmuşlar.

Daşkəsən rayonunda növbəti həqiqi hərbi xidmətə çağırışçılar 12 aprel 2018-ci il tarixdə seçkilərlə əlaqədar keçirilən ümumrayon mitinqində böyük təntənə ilə yola salınmışlar.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 118 nömrəli Fərmanı ilə “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq edilmişdir. Dövlət Proqramının tədbirlər planında Daşkəsən rayonuna aid 25 tədbir nəzərdə tutulmuşdur. Bu tədbirlərin 5-i ölkə əhəmiyyətli, 3-ü Gəncə-Qazax iqtisadi rayonu və 17-si isə Daşkəsən rayonu bölmələrində qeyd edilmişdir.

Cari ilin yanvar ayının 29-da möhtərəm Prezident cənab İlham Əliyevin iştirakı ilə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilmişdir.

Möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən konfransda cənab Prezidentimizin giriş və yekun nitqlərində Dövlət Proqramının icrası barədə hərtərəfli məlumat verilərək, perspektivlər müəyyənləşdirilmiş, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr vermişdir. Hazırda həmin istiqamətdə müvafiq işlər görülür.

Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən cari ilin keçən dövrü ərzində rayona özəl investisiyaların cəlb olunması sahəsində bir sıra işlər görülmüşdür. Rayona investisiya cəlb olunması məqsədilə ərazidə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, sənaye, energetika, tikinti, ticarət, nəqliyyat, telekommunikasiya və poçt, maliyyə və bank, turizm və digər xidmət sahələri üzrə mövcud vəziyyət, məlumatlar kütləvi informasiya vasitələri ilə hərtərəfli təşviq olunmuşdur. İş adamları, sahibkarlar və aidiyyəti qurumlarla birgə investisiyaların qoyulması, müvafiq layihələrin işlənib hazırlanması məsələləri geniş təhlil edilərək tətbiq olunması daha məqsədəuyğun olan təkliflər müəyyənləşdirilərək, özəl investisiya qoyuluşu üzrə investisiya qoymaq istəyən hüquqi və fiziki şəxslərə lazımi köməklik göstərilməklə əlverişli şərait yaradılması nəzərdə tutulmuşdur.

19 iyun 2018-ci il tarixdən 03 iyul 2018-ci il tarixədək “ASAN xidmət” Daşkəsən rayonunda səyyar olaraq xidmət göstərmişdir. “ASAN xidmət”in xidmətlərindən 1075 nəfər yararlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi İnkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda demişdir: ”Ərzaq təhlükəsizliyi məsələləri daim diqqət mərkəzindədir. Son illərdə bu istiqamətdə irəliləyiş var, amma hələ ki, bizi tam qane edə bilməz. Ona görə bu məsələyə xüsusi diqqət göstərilməlidir. Deməli, biz kənd təsərrüfatının ənənəvi olan və müəyyən dərəcədə unudulmuş texniki sahəsini inkişaf etdirməyə o vaxt başlamışıq ki, ərzaq təhlükəsizliyi məsələlərinə güclü təkan verildi. Ancaq biz yenə də bu məsələ ilə bağlı çox ciddi işləməliyik”.

Rayonda 3 kartofçuluq üzrə toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Toxumçuluq təsərrüfatlarının artırılması üçün işlər davam etdirilir.

Cari ilin keçən dövrü ərzində rayon ərazisində 1200,2 hektar sahədə kartof, 59,3 hektar sahədə kələm, 66,1 hektar sahədə lobya, 100 hektar yonca və 45,5 hektar göyərti əkilmişdir.

Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə Quşçu kəndində süni mayalama məntəqəsi fəaliyyət göstərir. Süni mayalama texniki tərəfindən 2018-ci ilin 6 ayı ərzində 195 baş heyvan süni mayalandırılmışdır. Mayalandırılmış heyvanlardan 87 baş bala alınmışdır. Gələcəkdə məntəqələrin sayının artırılması üçün işlər davam etdirilir.

Qeyd etmək lazımdır ki, rayonda torpaqlardan təyinatı üzrə istifadəyə görə müəyyən nöqsanlar mövcuddur. Həmin nöqsanların aradan qaldırılması üçün müvafiq lazımi tədbirlər görülməlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə 2018-ci ilin fevral ayının 10-dan 11 may 2018-ci il tarixə kimi ölkədə əhalinin sağlamlığının təmin etmək üçün tibbi müayinə günləri təşkil edilmişdir. Həmin tapşırığa əsasən Daşkəsən rayon mərkəzi xəstəxanasında müntəzəm olaraq əhali qrafik əsasında tibbi müayinədən keçmişlər. 49 yaşayış məntəqəsinin əhalisi və rayonun idarə, müəssisə və təşkilatlarının işçiləri tibbi müayinədən keçirilmişdir. Bu müddət ərzində 22051 nəfər tibbi müayinədən keçmiş, 114 nəfər müxtəlif xəstəliklərdən ixtisaslaşmış tibb müəssisəsinə göndərilmiş, 142 nəfər Daşkəsən rayon mərkəzi xəstəxanasının stasionar müalicəsinə cəlb olunmuş, 401 nəfərə isə ambulator müalicə yazılmışdır.

Bildiyiniz kimi, Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən 2013-cü ildə 53 bənddən ibarət olan “Yeni Daşkəsən” layihəsi elmi əsaslarla işlənib hazırlanmışdır. Bu layihə ilə rayonun hərtərəfli sosial-iqtisadi inkişafı, kənd təsərrüfatının ayrı-ayrı sektorlarının - heyvandarlığın, arıçılığın, kartofçuluğun, toxumçuluğun, həmçinin turizmin inkişafı, yeni inzibati binaların, korpusların inşası, su, qaz, elektrik təchizatı, yol və körpülərin salınması məsələsi, ən əsası isə yeni iş yerlərinin açılıb işsizliyin aradan qaldırılması, sahibkarlara münbit şəraitin yaradılması, mövcud problemlərin həlli, o cümlədən də Daşkəsən rayonu “Daşkəsən Filizsaflaşdırma” ASC-nin bazasında yaradılması əsas götürülərək “Daşkəsən Filizsaflaşdırma” ASC-nin, eləcə də “Alunit” İstehsalat sahəsinin yenidən işləməsinin müasir səviyyədə təmin olunması layihədə əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

“Daşkəsən Filizsaflaşdırma” ASC-nin və “Alunit” İstehsalat sahəsinin müasir texniki avadanlıqlarla təchiz edilərək müasir formada işə salınması həm rayonda işsizliyin tamamilə aradan qaldırılmasına, həm cəbhə boyu zonada, ermənilərlə təmas xəttində yerləşən Daşkəsən rayon sakinlərinin daimi işlə təmin olunmasına hərtərəfli şərait yaradacaq, həm də problemli məsələlər tam öz həllini taparaq Daşkəsən rayonu regionda inkişaf etmiş pilot bir rayona çevriləcəkdir.

“Azərbaycan Respublikasının metallurgiya kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 13 iyul 2016-cı il tarixli sərəncamı olmuşdur. Sərəncama əsasən, Azərbaycan Polad İstehsalı Kompleksinə daxil edilmiş “Daşkəsən Filizsaflaşdırma” ASC özəlləşdirməyə açıq elan olunmuş və bu məqsədlə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verilmişdir. Təəssüf ki, müəssisənin bu günə kimi investisiya müsabiqəsi baş tutmamışdır.

24 mart 2018-ci il tarixdə Daşkəsən rayonu ərazisində baş vermiş təbii fəlakət, güclü külək əsməsi -qasırğa nəticəsində Daşkəsən şəhəri, qəsəbə və kəndlərinin yaşayış, sosial və inzibati binalarının dam örtüklərinə, rayonun elektrik, rabitə təsərrüfatlarına, şəxsi minik avtomobillərinə ziyan dəymişdir. Dəymiş ziyanın nəticələri əsasən aradan qaldırılmışdır.

24 iyun 2018-ci il tarixdə rayon ərazisində təbii fəlakət baş vermiş və baş vermiş təbii fəlakət - güclü leysan yağışları (bəzi yaşayış məntəqələrində dolu və küləklə müşahidə olunmuş) nəticəsində yaranmış sel suları rayonun yol, elektrik, rabitə, qaz təsərrüfatlarına, məktəblərə, mədəniyyət obyektlərinə, sakinlərin fərdi yaşayış evlərinə və şəxsi təsərrüfatlarına, o cümlədən əkin sahələrinə, avtomobillərə, ərazidə olan sosial obyektlərə, yaylaqlarda vətəndaşların mal-qarasına çox ciddi ziyan vurmuşdur. Baş vermiş təbii fəlakət - güclü leysan yağışları nəticəsində yaranmış sel suları rayon ərazisindəki uzun illər (50 ilə yaxın müddətdə) istismarda olan Zağalı su anbarının (su tutumunun həcmi 4 milyon m3 olan), və hidrotexniki tunelin (en kəsiyi 16 m2, uzunluğu 1,7 km) bəzi hissələrinə xeyli ziyan vurmuşdur, hər iki qurğuda aşınmalar, deformasiyalar daha da artaraq qəzalı həddə çatmışdır. Rayonun Təzəkənd, Pirverdilər, Rəsullu, Xoşbulaq, Qazaxyolçular, Qaraqollar kəndləri ərazisindəki obyektlərə daha çox ziyan dəymişdir. Belə ki, sel suları Təzəkənd kəndi ərazisində su keçid körpülərini tamamilə dağıtmış, Xoşbulaq kəndi ərazisində kəndin iki hissəsi arasında olan körpünü, bir çox sosial obyektləri dağıdaraq aparmış, çay kənarında yerləşən bir neçə fərdi yaşayış evlərinə su dolaraq yararsız hala salmışdır. Qaraqollar kəndi ərazisində sel suları kəndlərarası avtomobil yolunun xeyli hissəsini sıradan çıxarmış, hətta bir neçə avtomobili kənddən keçən çay sularının axınına salmışdır. Çoxsaylı yaşayış məntəqələrinin rayon mərkəzi ilə gediş-gəliş əlaqəsi kəsilmişdir. Eyni zamanda sel suları xeyli elektrik və rabitə dayaqlarını, 5 ədəd elektrik transformatorunu sıradan çıxarmışdır. Bir çox ərazilərdə dağlardan iri qaya parçaları avtomobil yollarına tökülmüş, həmin yollarda nəqliyyatın hərəkəti tam dayanmış və yararsız hala düşmüşdür. Baş vermiş hadisə ilə əlaqədar dərhal Rayon İcra Hakimiyyətində qərargah yaradılmış, aidiyyəti üzrə idarə, müəssisə, xidmət təşkilatlarının, səhiyyə və hüquq-mühafizə orqanlarının rəhbərləri hadisə yerlərinə baxış keçirmişlər. Təbii fəlakətin yurduğu ziyanın aradan qaldırılması üçün Rayon İcra Hakimiyyətinin rəhbərliyi tərəfindən respublikanın aidiyyəti qurumlarının rəhbərlərinə məlumatlar verilmiş, müraciətlər olunmuşdur. Rayonun daxili imkanları hesabına dəymiş ziyanların aradan qaldırılması üçün aidiyyəti üzrə işlər görülmüş və hazırda həmin işlər davam etdirilir.

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin sədri Zakir İbrahimov çıxışında bildirmişdir ki, dağ-mədən hasilat sahəsinin inkişafı istiqamətində “AzerGold” QSC-nin ilk hədəfi Daşkəsəndə yerləşən Çovdar qızıl mədəninin fəaliyyətinin bərpası, yerli əhalinin işlə təmin olunması və gəlirlərin formalaşdırılması olub.

Bu məqsədlə qısa müddət ərzində müxtəlif təyinatlı təmir-tikinti işləri təşkil edilib, mədənin fəaliyyəti bərpa olunub, optimallaşdırılıb, istehsalat 24 saatlıq iş rejiminə keçirilib, işçilərin iş şəraiti təkmilləşdirilib, aktiv hasilat işlərinə başlanılıb və bu işlər bu gün də uğurla davam etdirilməkdədir. Hasilatın bərpası qiymətli metalların ixracını aktuallaşdırdı. Dünya metal birja bazarlarının tələblərini nəzərə alaraq, qiymətli metalların beynəlxalq standartlara uyğun saflaşdırılması üçün saflaşdırma şirkətləri hasilatçılar qarşısında texnoloji, ətraf mühit, şəffaflıq və digər parametrlər üzrə çox mürəkkəb şərtlər qoyur. Qürurla deyə bilərik ki, “AzerGold” QSC çoxsaylı audit və yoxlama prosedurlarını uğurla keçərək bir sıra beynəlxalq saflaşdırma şirkətləri tərəfindən müsbət rəy alıb, daha əlverişli kommersiya şərtləri təklif edən İsveçrənin dünyaca məşhur “Argor-Heraeus” şirkəti ilə 2017-ci ilin aprel ayında müqavilə imzalayıb və Çovdar qızıl mədənində hasil edilən qızıl və gümüşün ixracını həyata keçirməyə başlayıb.

2017-ci ilin aprel-dekabr ayları ərzində 60,3 min unsiya qızıl, 86,4 min unsiya gümüşün ixracı və beynəlxalq bazarlarda satışından 131,5 milyon manat, 2018-ci ilin birinci yarısında 20,7 min unsiya qızıl, 28,2 min unsiya gümüşün ixracı və beynəlxalq bazarlarda satışından 47,9 milyon manat, ümumilikdə isə 81,1 min unsiya qızılın, 114,6 min unsiya gümüşün satışı nəticəsində 178 milyon manatdan çox gəlir əldə edilib. Qazanılan yüksək göstəricilər 2017-ci ildə “AzerGold” QSC-ni qeyri-neft sektorunun sənaye məhsullarının ixracında lider mövqelərə yüksəltdi. Bu gəlirlərin hesabına Cəmiyyət dövlət büdcəsindən vəsait cəlb etmədən müxtəlif təyinatlı kapital və cari xərclərin qarşılanmasını təmin edib, habelə üzərində olan bank borcunun ödəmə planını üstələməklə, ciddi azaldılmasına nail olub. Bundan əlavə, əldə edilən gəlir hesabına yeni sahələrin inkişafına yönələn ilkin investisiya qoyuluşları da həyata keçirilib.

Çovdar yatağında icra edilən və 2021-ci ildə başa çatacaq yerüstü filiz qatının istismarı dövründə ümumilikdə hasil ediləcək daha 129 min unsiya qızılın və 202 min unsiya gümüşün satışı nəticəsində ölkə iqtisadiyyatına 300 milyon manata yaxın məbləğdə gəlirin olması planlaşdırılır. Qiymətlilərin beynəlxalq bazarda satışı ilə yanaşı, yerli bazarda da Azərbaycanın qızıl və gümüşünün satışının həyata keçirilməsi və ixracdan asılılığının azaldılması üçün Cəmiyyət tərəfindən səylər göstərilməkdədir. Bu ildən etibarən Azərbaycan Respublikasının Dövlət Neft Fondu Cəmiyyətin hasil etdiyi qızılı alacaq və ölkənin qızıl ehtiyat fondu həm də Azərbaycan qızılı hesabına formalaşacaq.

2021-ci ildə hasilata başlanması nəzərdə tutulan Çovdar yatağının yeraltı filiz qatının istismarına dair texniki-iqtisadi əsaslandırma sənədi beynəlxalq məsləhətçi şirkət tərəfindən hazırlanır. İlkin hesablamalara əsasən, layihənin 6 illik istismarı çərçivəsində 400 milyon manatdan artıq gəlirin əldə edilməsi nəzərdə tutulub. Əlavə olaraq, yatağın ehtiyatlarının artırılması istiqamətində sahənin yaxın və uzaq ərazilərində fəal kəşfiyyat və tədqiqat işləri aparılır.

2018-ci ilin 6 ayı ərzində Daşkəsən rayon Telekommunikasiya Qovşağı tərəfindən 134800 manat həcmində rabitə xidməti göstərilmişdir. Rayon Telekommunikasiya Qovşağına yeni müasir avadanlıqların gətirilməsinə, sürətli internet istifadəçilərinin sayının artırılmasına və rayonun kəndlərində əhalinin internetdən istifadə etmələri üçün lazımi şəraitin yaradılmasına ehtiyac vardır.

Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun yenidən qurulması işlərinə başlanılmış və hazırda həmin işlər davam etdirilir.

2019-cu ildə Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolunun yenidən qurulması üçün müvafiq sənədlər işlənib hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

2018-ci ilin 6 ayı ərzində “31 nömrəli Yol İstismarı” MMC tərəfindən respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və təmiri üzrə 473,9 min manatlıq iş görülmüşdür.

Möhtərəm Prezident cənab İlham Əliyev Nazirlər Kabinetinin iclasında yekun nitqində qeyd etmişdir:

...“İnfrastruktur layihələri ilə bağlı dövlət investisiya proqramında nəzərdə tutulmuş bütün vəzifələr ilin sonuna qədər icra edilməlidir”.

Cari ilin birinci yarısında əhalinin elektrik enerjisi, qaz və içməli su ilə təchizatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə bir sıra təmir-bərpa, yenidənqurma işləri həyata keçirilmişdir.

Daşkəsən Elektrik Şəbəkəsi tərəfindən zədələnmiş 4 ədəd müxtəlif güclü transformator dəyişdirilmiş, 27 ədəd 10-6/0,4 kV-luq yarımstansiyada və 19,1 kilometr elektrikverici xətlərdə təmir işləri aparılmış, transformatorlara və yağ tutumlu avadanlıqlara 420 kiloqram transformator yağı əlavə olunmuşdur. 0,4 kV-luq şəbəkənin kabel xətti ilə çəkilməsi üçün 327 ədəd özünü daşıyan izolyasiyalı naqil üçün metal dayaq basdırılmış, müxtəlif markalı 16522 metr kabel çəkilmişdir. 35/6 kV-luq “Daşkəsən Filizsaflaşdırma” ASC-yə məxsus yarımstansiyadan çıxan 6 kV-luq Xoşbulaq və 6 kV-luq Dəstəfur hava xətlərinin Elektrik şəbəkəsinə məxsus 110/35/6 kV-luq Daşkəsən yarımstansiyasından qidalandırılması üçün tikintisi dayandırılmış I və II Əhmədli hava xətlərinin tikintisi davam etdirilmiş, 11,5 kilometr ikidövrəli hava xətti fevralın 5-də şəbəkəyə qoşulmuşdur. Əhmədli kəndi ərazisində çıxış xətləri üçün 270 metr kabel çəkilmiş, 6 kV-luq Xoşbulaq, 6 kV-luq Dəstəfur hava xətlərinin 110/35/6 kV-luq Daşkəsən elektrik yarımstansiyasından qidalandırılması təmin edilmişdir.

Elektrik Şəbəkəsinin rəhbərliyi Elektrik şəbəkəsinin yeni müasir tələblər səviyyəsində qurulmasını, elektrik enerjisinin dəyərinin tam ödənilməsini təmin etməli və qeyri-balans itkisinin səbəblərini müəyyənləşdirərək bu sahədə daha ciddi tədbirlər görülməsini təmin etməlidir.

Hazırda rayonun 49 yaşayış məntəqəsindən 8 yaşayış məntəqəsi təbii qazla təmin olunur. 2018-ci ilin 6 ayı ərzində rayonun Xoşbulaq kəndində 189 abonent təbii qazla təmin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 5 mart 2018-ci il tarixli, 3749 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2018-ci ildə qazlaşdırılması nəzərdə tutulan yaşayış məntəqələri və ərazilərin siyahısında Daşkəsən rayonu üzrə Quşçu və Bayan kəndləri nəzərdə tutulmuşdur. Quşçu kəndində təbii qaz xəttinin çəkilişinə başlanılmış və hazırda həmin işlər davam etdirilir. Bayan kəndində isə təbii qaz xəttinin çəkilməsi üçün hazırlıq işləri görülür.

Qaz Xidmət Sahəsi üzrə 2018-ci ilin 6 ayı ərzində əhaliyə verilən təbii qazın dəyərinin ödənilməsi 107,4%, ümumi ödəmə üzrə isə göstərici 91,3% olmuşdur. Rayonda istehlakçıların təbii qazla təmin olunmasında mövcud problemlərin həll edilməsi üçün Qaz Xidmət Sahəsinin rəhbərliyi aidiyyəti üzrə lazımi tədbirlər görməlidir.

Daşkəsən rayon Sukanal idarəsinin fəaliyyətində bir sıra çatışmazlıqlar mövcuddur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova 16 aprel 2018-ci il tarixdə Daşkəsən şəhərində Daşkəsən, Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qarşımızda çox məsul və şərəfli vəzifələr durur. İyulun 8-də Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş iclasında müxtəlif sahələrdə mövcud vəziyyəti hərtərəfli təhlil edərək qarşıda duran vəzifələri göstərən möhtərəm Prezidentimiz cənab İlham Əliyev yekun nitqində demişdir: “...Azərbaycan dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci yerdədir. Yol infrastrukturunun inkişafına görə 36-cı yerdədir. İnkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü yerdədir. Ümumi infrastrukturun inkişafına görə dünya miqyasında 26-cı yerdədir. Xalqın iqtidara dəstəyinə görə dünya miqyasında 20-ci yerdədir. Bax, bu rəqəmlər əyani şəkildə göstərir ki, Azərbaycan hansı böyük uğurlara imza atıb. Bu, əyani şəkildə göstərir ki, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və biz elə etməliyik ki, ölkəmizin inkişafını dayanıqlı və daimi edək.”

İcazə verin, Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevi bir daha əmin edim ki, bundan sonra da qarşıda duran vəzifələrin layiqincə yerinə yetirilməsi üçün daha yüksək əzmkarlıq göstərərək, bütün qüvvəmizi səfərbər edib, var gücümüzlə çalışacağıq.

Yaşasın müstəqil Azərbaycan!

Müstəqil Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə eşq olsun!

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin dərin məzmunlu geniş nitqindən sonra məruzə ətrafında rayon üzrə Maliyyə İdarəsinin rəisi Natiq Zeynalov, RİHB-nin Daşkəsən şəhər İƏDÜN-si Nüsrət Vəliyev və digərləri çıxışlar etmiş, qarşıda duran vəzifələrin icrasından danışmış, daşkəsənlilərə göstərilən diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.

Müzakirə olunan məsələlərlə əlaqədar olaraq yığıncaqda qərar qəbul edildikdən sonra toplantı iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV AYRI-AYRI GÜNLƏRDƏ RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİNDƏ VƏTƏNDAŞLARIN NÖVBƏTİ SƏYYAR QƏBULLARINI KEÇİRİB

İYUNUN 6-DA DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV TƏSDİQ EDİLMİŞ QRAFİKƏ UYĞUN OLARAQ MUŞAVAQ KƏNDİNDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULUNU KEÇİRİB.



Qəbulda hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, digər xidmət təşkilatlarının rəhbərləri, ərazi icra nümayəndəsi, bələdiyyə sədri və kənd sakinləri iştirak ediblər.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev əvvəlcə Daşkəsənin sosial-iqtisadi inkişafı, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən, o cümlədən son illər Muşavaq kəndində görülmüş işlər barədə danışaraq bildirib ki, əhalinin rifahının daha da yaxşılaşdırılmasına yönəlmiş tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

Əhəd Abıyev çıxışında Muşavaq kəndində tikilmiş 80 şagird yerlik ümumi orta məktəb binasının müasir standartlara cavab verdiyini və bu sahədə olan problemin tamamilə həll olunduğunu diqqətə çatdırıb.

Sonra vətəndaşların müraciətləri dinlənilib. Sakinlər kənddaxili və kəndə gələn avtomobil yolunun cari təmir olunması, ev tikintisi üçün torpaq sahəsinin ayrılması, qaz xəttinin çəkilməsi və digər məsələlər barədə müraciətlər ediblər.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev qaldırılan məsələlərin həll edilməsi məqsədilə əlaqədar qurumlara müvafiq tapşırıqlarını verib. Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb.

Kənd sakinləri əhalinin problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə, göstərilən diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

İYUNUN 13-DƏ RAYON İCRA BAŞÇISININ NÖVBƏTİ SƏYYAR QƏBULU ALMALI KƏNDİNDƏ KEÇİRİLİB.

Açıq havada baş tutan qəbulda Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, aparatın şöbə müdirləri, məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, xidmət sahələrinin rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Səyyar qəbulda çıxış edən Əhəd Abıyev bu cür görüşlərin ölkə Başçısı cənab İlham Əliyevin tapşırığı ilə mütəmadi davam etdirildiyini bildirib. O, ölkə Rəhbərinin vətəndaş müraciətlərinə həssas münasibət göstərmək barədə tapşırıqlarının rayonda diqqət mərkəzində saxlanıldığını vurğulayıb. Bildirib ki, vətəndaşların problemlərinin həlli, ilk növbədə, onların qayğılarını vaxtında öyrənməkdən, hər bir insanın irəli sürdüyü məsələni, etdiyi xahiş və təklifi diqqətlə araşdırmaqdan asılıdır. Əhəd Abıyev həmçinin qeyd edib ki, bu il Prezident cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Almalı kəndində modul tipli ümumi orta məktəbin tikintisi nəzərdə tutulub.

Səyyar qəbul zamanı müraciətlər kəndarası avtomobil yolunun, təbii fəlakət zamanı dam örtükləri yararsız hala düşmüş yaşayış evlərinin təmiri, əraziyə yüksəksürətli internet və təbii qaz xəttinin çəkilməsi və digər şəxsi məsələlər barədə olmuşdur. Ayrı-ayrı sahələrə dair kənd sakinləri tərəfindən irəli sürülən müraciət, təklif və şikayətlərin bir qismi Rayon İcra Hakimiyyəti Başçısının göstərişi ilə yerindəcə həll edilmiş, digərləri isə baxılması üçün nəzarətə götürülmüşdür.

Səyyar qəbul zamanı çıxış edən kənd sakinləri göstərilən diqqət və qayğıya görə ölkə Başçısı cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

NÖVBƏTİ SƏYYAR QƏBUL İYUNUN 20-DƏ BAYAN KƏNDİNDƏ OLUB.

Görüşdə Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının, səhiyyə, təhsil, mədəniyyət, digər xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev çıxışında Bayan kənd sakinləri ilə dəfələrlə görüşdüyünü və həmin görüşlərdə qaldırılan məsələlərin həlli istiqamətində mühüm işlərin görüldüyünü bildirmişdir. Qeyd etmişdir ki, ötən dövrlərdə kənddə tam müasir tələblərə cavab verən yeni məktəb binası tikilmiş, abadlıq işləri aparılmış, əhalinin içməli su və elektrik enerjisi ilə fasiləsiz təmin olunması sahəsində mövcud olan problemlər aradan qaldırılmışdır.

Əhəd Abıyev çıxışında xüsusilə vurğulamışdır ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev 2018-ci ildə Azərbaycanda qazlaşdırılacaq yaşayış məntəqələrinin siyahısını təsdiq edib. Həmin siyahıda Daşkəsən rayonu üzrə 2 yaşayış məntəqəsinin, o cümlədən 2 mindən çox əhalinin yaşadığı Bayan kəndinin də qazlaşdırılması nəzərdə tutulub. Kənd sakinləri ölkə Rəhbərinin bu qayğısını böyük sevinclə qarşılayıblar.

Görüş zamanı müxtəlif məsələlər barədə sakinlərin müraciətləri qeydə alınıb. Müraciətlər kənd ərazisində olan nasaz elektrik dayaqlarının dəyişdirilməsi, uşaq bağçasının əsaslı təmir edilməsi, kəndarası yolların təmiri, işlə təmin olunma və digər məsələlər ilə bağlı olub.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev müraciətlərdə qaldırılan məsələlərin icrası ilə bağlı aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə öz müvafiq tapşırıqlarını verib.

Kənd sakinləri onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək möhtərəm Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

İYULUN 11-DƏ NÖVBƏTİ SƏYYAR QƏBUL ÇOVDAR KƏNDİNDƏ BAŞ TUTUB.



Açıq havada keçirilən görüşdə rayonun idarə, müəssisə və hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Səyyar qəbulda çıxış edən Əhəd Abıyev iyulun 10-da Gəncə şəhərində ictimai asayişi, sabitliyi pozmağa, iğtişaş törətməyə cəhd göstərmiş radikal dini yönümlü bir qrup şəxsin xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarına küt və kəsici-deşici alətlərlə hücum etməsi nəticəsində 2 polis zabitinin şəhid olmasını dərin təəssüf hissi ilə yad edərək şəhid olmuş polis zabitlərinə Allahdan rəhmət diləyib, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib.

Rayon İcra Hakimiyyətinin Başçısı bildirib ki, bu gün Respublikamızda möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə gedən sürətli inkişaf ölkədəki sabitlik və əmin-amanlığa əsaslanır. Bu inkişafı əngəlləmək, ictimai-siyasi sabitliyi pozmaq istəyən müəyyən qüvvələr vardır. Sözsüz ki, bütün bunlar xaos, qarşıdurma yaratmaq, iğtişaş törətmək, hakimiyyəti zorla dəyişdirmək, insanları qarşı-qarşıya qoymaq deməkdir. Azərbaycanda ictimai-siyasi sabitlik yüksək səviyyədə təmin olunub, Azərbaycan dövləti vətəndaşlarının təhlükəsizliyini kifayət qədər dayanıqlı və yüksək səviyyədə qoruyur, xalq-iqtidar birliyi sarsılmazdır.

Son illər Daşkəsəndə aparılmış irimiqyaslı tikinti-quruculuq və abadlıq işlərindən söz açan Əhəd Abıyev qeyd edib ki, “Yeni Daşkəsən” layihəsində “Çovdar” qızıl zavodunun işə salınması məsələsi də əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 fevral 2015-ci il tarixli sərəncamı ilə tərkibinə “Çovdar” qızıl zavodunun daxil olduğu “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti yaradılmış, qısa müddət ərzində “Çovdar” qızıl yatağının müasir texnologiyalarla istismarının təşkil edilməsi, zavodun işə salınması üçün müvafiq hazırlıq işləri tam başa çatdırılmış və zavod müasir texnologiyalar əsasında tikilmişdir. Zavodun işə salınması təbii sərvətlərin ən dəyərlisinin emalı ilə yanaşı, həm də rayon əhalisinin işsiz hissəsini hazırda məşğulluqla təmin edir. Əsasən yaxın ərazidə yaşayan yerli əhalinin mədən sahəsində işə qəbuluna üstünlük verən “AzerGold” QSC-də hazırda 450 nəfərdən çox işçi çalışır.

Rayon İcra Hakimiyyətinin Başçısı vurğulayıb ki, Çovdar kəndinin işıq, su, qaz, yol ilə bağlı sosial qayğılarının həlli istiqamətində işlər aparılır və əhali məcburi köçkünlər üçün nəzərdə tutulan bütün imtiyazlardan istifadə edir. Kənddə məktəb, tibb məntəqəsi, kitabxana fəaliyyət göstərir, torpaq islahatı aparılıb, hər bir sakin pay torpağı ilə təmin olunub.

Daha sonra sakinlərin müraciətlərini dinləyən Əhəd Abıyev qaldırılan məsələlərin icrası ilə bağlı aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə öz müvafiq tapşırıqlarını verib. Ayrı-ayrı sahələrə dair kənd sakinləri tərəfindən irəli sürülən müraciət, təklif və şikayətlərin bir qismi yerindəcə həll edilib, bəziləri isə həll edilməsi üçün nəzarətə götürülüb.

Sakinlər yerlərdə müraciətlərə baxılması üçün yaradılan şəraitdən razılıq edərək göstərdiyi ali diqqət və qayğıya görə möhtərəm Prezident cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

İYULUN 18-DƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ NÖVBƏTİ SƏYYAR QƏBULU AŞAĞI DAŞKƏSƏN KƏNDİNDƏ KEÇİRİLİB.

Aşağı Daşkəsən kənd tam orta məktəbində keçirilən səyyar qəbulda rayonun hüquq-mühafizə orqanlarının, səhiyyə, təhsil, mədəniyyət və xidmət təşkilatlarının rəhbərləri, ərazinin icra nümayəndəsi, bələdiyyə sədri və kənd sakinləri iştirak ediblər.

Kənd sakinləri ilə növbəti görüşü giriş nitqi ilə açan Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev vətəndaşların səyyar qəbullarının məqsədinin yerlərdə ortaya çıxan problemlərin öyrənilməsi, onların həlli istiqamətində operativ kompleks addımların atılması olduğunu qeyd edib.

Son illər Daşkəsən rayonunda həyata keçirilən tədbirlər barədə geniş məlumat verən Əhəd Abıyev xeyli abadlıq, quruculuq, təmir-bərpa işlərinin aparıldığını, bütün potensial imkanlar nəzərə alınmaqla bir çox layihələrin uğurla icra olunduğunu, sakinlər tərəfindən qaldırılan problemlərin həlli istiqamətində daim tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Rayon rəhbəri deyib ki, ötən dövrlər ərzində Aşağı Daşkəsən kənd G.İsmayılov adına tam orta məktəbinin yararsız dam örtüyü dəmir lövhələrlə əvəzlənmiş, binasında cari təmir işləri aparılmış, kənd uşaq bağçasının maddi-texniki bazası möhkəmləndirilmişdir.

Kənd sakinləri nasaz elektrik dirəklərinin dəyişdirilməsi, əlavə su mənbələrindən içməli su xəttinin çəkilməsi, kəndin qazlaşdırılması, avtomobil yollarının cari təmiri və şəxsi məsələlərə dair müraciətlər ediblər.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev səsləndirilən müraciətlərin yerində araşdırılaraq həlli məqsədilə aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə öz tövsiyə və tapşırıqlarını verib.

Görülən işləri müsbət qiymətləndirən kənd sakinləri onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.

İYULUN 19-DA NÖVBƏTİ SƏYYAR QƏBUL DƏSTƏFUR KƏNDİNDƏ OLUB.

Dəstəfur kəndində keçirilən görüşdə Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Əvvəlcə Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev çıxış edərək Daşkəsən rayonunun bugünkü hərtərəfli inkişafı barədə ətraflı məlumat verib. O, qeyd edib ki, “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın uğurla icrası çərçivəsində rayonda, eləcə də Dəstəfur kəndində əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində çox mühüm işlər görülüb.



Rayon rəhbəri xüsusilə bildirmişdir ki, ötən dövrlərdə Dəstəfur kəndinə gedən avtomobil yolunda olan körpü əsaslı təmir edilib, bir çox abadlıq-quruculuq tədbirləri həyata keçirilib, ən əsası isə sakinlər tərəfindən qaldırılan problemlərin həll edilməsi üçün mühüm addımlar atılıb.

Daha sonra Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev sakinlərin müraciətlərini dinləyib və qaldırılan məsələlərin həlli məqsədi ilə aidiyyəti üzrə öz tövsiyə və tapşırıqlarını verib. Müraciətlərin bir qismi yerindəcə öz müsbət həllini tapıb.

Qəbulda çıxış edən kənd sakinləri onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

İYULUN 25-DƏ NÖVBƏTİ SƏYYAR QƏBUL ƏHMƏDLİ KƏNDİNDƏ KEÇİRİLİB.



Əhmədli kənd R.Qurbanov adına ümumi orta məktəbin binasında keçirilən görüşdə Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərləri, kənd sakinləri iştirak ediblər.

Görüşdə çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev qeyd edib ki, gəlişimizdə əsas məqsəd Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin tapşırığına uyğun olaraq sizin təklif, şikayət və müraciətlərinizlə yerində tanış olmaq, müvafiq tədbirlər görməkdir.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev kənd sakinlərinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində möhtərəm cənab Prezident tərəfindən qarşıya qoyulan vəzifələr haqqında geniş məlumat vermiş, həyata keçirilən tədbirlər barədə danışmış, kənd təsərrüfatının ayrı-ayrı sektorlarının inkişafı istiqamətində rayonda görüləcək işlərdən söz açmışdır.

Rayon rəhbəri xüsusilə vurğulayıb ki, ötən dövrlərdə Əhmədli kəndinə xeyli abadlıq-quruculuq işləri görülmüş, nasaz elektrik dayaqları dəyişdirmiş, kənd ümumi orta məktəbi və mədəniyyət evi təmir edilmişdir.

Qəbulda sakinlər tərəfindən rayon mərkəzindən kəndə gələn avtomobil yolunun əsaslı təmir edilməsi, təbii qaz xəttinin çəkilməsi, nasaz elektrik dirəklərinin və naqillərinin dəyişdirilməsi və digər məsələlərin həlli qaldırılıb.

Müraciətlərin çoxu yerindəcə həll olunub. Qeyd olunan bəzi problemlər nəzarətə götürülüb və onların həlli ilə bağlı Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verib.

Əhmədli kənd sakinləri vətəndaşlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

İYULUN 26-DA RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV HÜQUQ-MÜHAFİZƏ ORQANLARININ, ƏLAQƏDAR İDARƏ, MÜƏSSİSƏ VƏ TƏŞKİLAT RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ QAZAXYOLÇULAR KƏNDİNDƏ SƏYYAR QƏBUL KEÇİRİB.



Qazaxyolçular kənd tam orta məktəbinin həyətində, açıq havada keçirilən görüşdə Əhəd Abıyev regionların sosial-iqtisadi inkişafı çərçivəsində Daşkəsəndə icra olunan layihələrdən danışıb. Rayon rəhbəri həmçinin turizm imkanları böyük olan Qazaxyolçular kəndi ərazisində aparılan abadlıq-quruculuq işlərindən, kəndin qazlaşdırılmasından, elektrik təchizatının əsaslı surətdə yeniləşdirilməsindən söhbət açıb. Bildirib ki, qış aylarında güclü qar və külək elektrik verilişində fasilələr yaradırdı. Elektrik naqillərinin SİP kabellərlə əvəzlənməsi və dayaqların dəyişdirilməsi bu kimi problemləri artıq arxada qoymuşdur.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev xüsusilə diqqətə çatdırıb ki, möhtərəm Prezident cənab İlham Əliyevin 2 aprel 2012-ci il tarixli Sərəncamı ilə 3 min nəfərdən çox əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Zağalı-Kollu avtomobil yolunun tikintisinin yüksək səviyyədə aparılaraq başa çatdırılması nəticəsində Qazaxyolçular kəndinin də bu sahədə olan problemi tam öz həllini tapmış, insanların gediş-gəlişi asanlaşmış, ərazidə yeni iş yerlərinin yaranmasına, kənd camaatının daha yaxşı yaşamasına, turizmin inkişafına və təsərrüfatların genişləndirməsinə münbit şərait yaranmışdır.

Daha sonra sakinlərin müraciətləri dinlənilib. Kənd sakinləri müraciətlərində kəndə verilən elektrik enerjisinin gərginliyinin az olması, əlavə su xəttinin çəkilməsi, kənddaxili yolların təmiri və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş ediblər.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev sakinlər tərəfindən qaldırılan təklif və müraciətlərin həlli ilə əlaqədar aidiyyəti qurumların rəhbərlərinə öz tapşırıqlarını verib.

Kənd sakinləri respublikamızda və eləcə rayonda gedən abadlıq, quruculuq, əsaslı yenidənqurma işlərinə, o cümlədən vətəndaşların müraciətlərinə bəslənən həssas münasibətə görə ölkə Prezidenti cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

DAŞKƏSƏNDƏ AZƏRBAYCAN POLİSİNİN YARANMASININ 100 İLLİYİ - PEŞƏ BAYRAMI QEYD EDİLİB

İyulun 2-də Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev və rayonun hüquq-mühafizə orqanlarının əməkdaşları Ulu Öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsi önünə gələrək gül dəstələri qoyub, ümummilli liderin nurlu, işıqlı xatirəsini böyük ehtiramla yad ediblər. Tədbir iştirakçıları Daşkəsən Rayon Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini özündə əks etdirən fotolara və eksponatlara baxış keçiriblər.

Azərbaycan Polisinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş bayram tədbiri Rayon Polis Şöbəsində davam etdirilib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda canlarını fəda etmiş, xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Giriş nitqi ilə çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev başda Daxili İşlər Naziri general-polkovnik hörmətli Ramil Usubov olmaqla Rayon Polis Şöbəsinin əməkdaşlarını Azərbaycan Polisinin yaranmasının 100 illiyi - Peşə bayramları münasibətilə təbrik etdikdən sonra deyib:

- Demokratik prinsiplərin və ənənələrin varisliyinə əsaslanan ümummilli liderimiz Heydər Əliyev 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-ni Azərbaycan Polisi günü elan etmişdir. Asayiş keşikçiləri nəslinin Vətənə və xalqa xidmətlərini özündə əks etdirən, mərdlik, şücaət və qəhrəmanlıqlarla zəngin olan bu tarix 1918-ci il iyulun 2-də Azərbaycan Demokratik Respublikası Daxili İşlər Nazirliyinin tərkibində asayişi mühafizə dəstələrinin yaradılması ilə başlanmış, həmin dövrdə polis Cümhuriyyətin formalaşmasında, milli mənafelərin qorunmasında xüsusi rol oynamış, sovet hakimiyyəti dövründə isə ictimai-siyasi quruluşun bütün ziddiyyətlərinə baxmayaraq, böyük inkişaf yolu keçmişdir. Bu dövrün ən əhəmiyyətli mərhələsi Ulu Öndərimizin Azərbaycana rəhbərlik etdiyi illər olmuşdur. Keçmiş ittifaq miqyasında Daxili İşlər Nazirliyi təşkilatı cəhətdən möhkəmlənmiş, şəxsi heyəti yüksək peşə hazırlığı əldə etmişdir. 1980-ci illərin sonlarında, daxili işlər orqanları özünün birbaşa funksiyalarını həyata keçirməklə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən milli müdafiə vəzifələrini də layiqincə yerinə yetirmişdir.

1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra yaranmış mürəkkəb vəziyyət, ölkə həyatının bütün sahələrini bürümüş hərc-mərclik və özbaşınalıq hüquq mühafizə strukturlarından da yan keçməmişdi. Respublikamız yeni əldə etdiyi müstəqilliyini itirmək təhdidi ilə üzləşmiş, vətəndaşlarımızın azad və təhlükəsiz şəraitdə yaşamaq hüququ pozulurdu. Belə ağır vəziyyətdə xalqımızın təkidi ilə 1993-cü ilin iyununda Azərbaycana siyasi rəhbərliyə qayıdan Ümummilli Liderimiz Heydər Əliyev ölkəni vətəndaş müharibəsi və parçalanmaq təhlükəsindən xilas etdi, müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalət, demokratiya, hüquqi dövlət quruculuğu ideologiyasının, habelə milli inkişaf modelinin əsasını qoydu.

Azərbaycan yenidən müstəqilliyə qovuşduqdan sonra polis adı bərpa olundu, onun funksiya və vəzifələri dəqiqləşdirildi. Azərbaycan polisi Birinci Qarabağ müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Daxili işlər orqanlarının və daxili qoşunların şəxsi heyətinin 931 nəfəri bu müharibədə şəhid olmuşdur. Polisin sıralarında xeyli sayda "Milli Qəhrəman" adına, habelə orden və medallarla təltifə layiq görülənlər vardır.

2003-cü ilin oktyabrında cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinə yekdilliklə səs verən xalqımız Heydər Əliyev siyasi kursunun davam etdirilməsində qərarlı olduğunu birmənalı təsdiqlədi. Həmin ildən etibarən ölkəmizdə möhtərəm Prezidentimizin düşünülmüş və sürətli tərəqqi konsepsiyasına uyğun olaraq, inkişafın yeni mərhələsi başlandı. Aparılan quruculuq işləri və islahatlar Daxili İşlər Nazirliyini, onun orqan və hissələrini də əhatə etdi. Bu gün Azərbaycan polisi öz peşəkarlığını artırmaqla yanaşı, eyni zamanda beynəlxalq standartlara uyğunlaşdırılır. Möhtərəm Prezidentimizin tapşırıq və tövsiyələrinə uyğun həyata keçirilən kompleks tədbirlər, o cümlədən vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində sistemli fəaliyyət orqan və hissələrdə qanunçuluğu əhəmiyyətli dərəcədə möhkəmləndirmişdir.



Daşkəsən Rayon Polis Şöbəsi də Daxili İşlər Nazirliyinin nümunəvi fəaliyyət göstərən şöbələrindən biridir. Son dövrlər Rayon Polis Şöbəsinin rəhbərliyi və şəxsi heyəti yeni kadrlarla daha da möhkəmləndirilmiş, şöbənin maddi-texniki bazası xeyli yaxşılaşdırılmışdır. Rayonun işğalçı qüvvələrlə hərbi təmas xətti olan ərazilərində yeni polis məntəqələri yaradılmışdır. Polis Şöbəsi tərəfindən rayonda ictimai asayişin qorunması, cinayətkarlığın qarşısının alınması üçün yüksək səviyyədə fəaliyyət göstərilir, xidmət aparılır. Rayon İcra Hakimiyyəti ilə Rayon Polis Şöbəsi arasında çox yüksək qarşılıqlı, səmərəli əməkdaşlıq mövcuddur. Əminik ki, bundan sonra da Rayon Polis Şöbəsi üzərinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirəcəkdir.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev çıxışının sonunda Azərbaycan Polisinin yaranmasının 100 illiyi - Peşə bayramları münasibətilə polis işçilərini bir daha da səmimi qəlbdən təbrik edib, onlara məsul və şərəfli xidmətlərində yeni-yeni uğurlar arzulayıb.

Sonra Daşkəsən Rayon Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Vəfadar Orucov Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik hörmətli Ramil Usubovun təbrik məktubunu Şöbənin şəxsi heyətinə oxuyub, Azərbaycan Polisinin yaranması və inkişafı yolundan danışıb.

Bayram tədbirinin sonunda Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev polis əməkdaşlarına Daşkəsən Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanlarını və qiymətli hədiyyələr təqdim edib.

Ruslan MƏMMƏDƏLİYEV
RİHBA-nın Hüquq şöbəsinin məsləhətçisi

DAŞKƏSƏN RAYONUNDA HƏRBİ XİDMƏTİ BAŞA VURMUŞ GƏNCLƏRİN TƏNTƏNƏLİ QARŞILANMASI MƏRASİMİ KEÇİRİLİB

İyulun 23-də Daşkəsən Rayon İcra Hakimiyyəti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin birgə təşkilatçılığı ilə Daşkəsən rayonundan olan ehtiyata buraxılmış müddətli həqiqi hərbi xidmət qulluqçularının qarşılanması münasibətilə təntənəli tədbir keçirilib.

Tədbirdə rayon rəhbərliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin şəxsi heyəti, şəhid ailələri, Qarabağ Müharibəsi veteranları, hərbi xidmətə çağırış yaşlı gənclər, valideynlər, məktəblilər, rayon ictimaiyyətinin nümayəndələri və KİV mənsubları iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları rayon mərkəzində ucaldılmış xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri qoyaraq Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsinin ehtiramla yad edilməsi ilə başlanan tədbiri giriş sözü ilə açan Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev deyib:

- Əvvəla, hər birinizi salamlayaraq, bildirirəm ki, biz bu gün buraya Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq müddətli həqiqi hərbi xidmətdən tərxis olunub rayonumuza qayıtmış daşkəsənli gənclərin qarşılanması mərasiminə toplaşmışıq.

Bu əlamətdar hadisə münasibətilə hərbi xidmətini uğurla başa vurmuş əziz çağırışçılar - sizi, valideynlərinizi, əzizlərinizi, həmçinin rayonumuzun bütün ictimaiyyətini səmimi qəlbdən təbrik edirəm.

Müasir Azərbaycan dövlətinin ordu quruculuğu və onun qısa müddətdə yüksək inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri ilə bağlıdır.

Xüsusilə qeyd olunmalıdır ki, Heydər Əliyev Milli Ordumuzun yaradılması prosesinə hələ Naxçıvanda, Ali Məclisin Sədri olarkən başlamışdır. Ulu Öndərin sarsılmaz qətiyyəti və qayğısı sayəsində qısa müddət ərzində Silahlı Qüvvələrdə geniş islahatlar aparılmış, ordunun texniki təminatı, hərbi qulluqçuların sosial statusu, hüquqi vəzifələri haqqında mühüm qanunvericilik aktları qəbul edilmiş, ən əsası isə, Silahlı Qüvvələrin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsinə, beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin formalaşdırılmasına, peşəkar zabit kadrlarının hazırlığına xüsusi diqqət yönəldilmişdir.

Heydər Əliyev təkcə Azərbaycanın hərtərəfli inkişafına, iqtisadi-siyasi cəhətdən güclənməsinə, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasına deyil, dövlətimizin, xalqımızın təhlükəsizliyinin təminatına da öz böyük töhfələrini vermiş, onun gələcək strategiyasını müəyyən etmişdir.

Ulu Öndərin Azərbaycanda ordu quruculuğu istiqamətində açdığı yol bu gün möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında son 15 ildə Silahlı Qüvvələrimiz özünün yeni inkişaf mərhələsinə qədəm qoymuş, şəxsi heyətin müasir hərbi texnika ilə təminatı, onun xidmət və həyat şəraiti davamlı şəkildə yaxşılaşdırılmışdır. Aparılan genişmiqyaslı islahatlar nəticəsində hazırda Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü ordularından biri kimi dəyərləndirilir.

Milli Ordumuzun hərbi hissələrinin son illərdə keçirdiyi əməliyyatlar onun inkişaf və təkmilləşmə yolunun uğurlu imtahanları olmuş, Ermənistanın silahlı qüvvələri əsgər və zabitlərimizin döyüş əzmi və peşəkarlığı qarşısında duruş gətirə bilməmişlər. 2016-cı ilin dörd günlük aprel döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin sarsıdıcı qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı strateji yüksəkliklər, Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və digər mühüm mövqelər düşməndən azad edilmişdir. Aprel döyüşlərində Ermənistana məxsus 30-dək tank, 320 döyüşçü məhv edilmiş və 500-dən artıq döyüşçü yaralanmışdır. Bu döyüş təkcə Silahlı Qüvvələrimizin yüksək peşəkarlığını, döyüş əzmini deyil, həm də Azərbaycan xalqının həmrəyliyini nümayiş etdirmişdir.

İki il sonra, 2018-ci il mayın 20-27-də Silahlı Qüvvələrimizin həyata keçirdiyi digər uğurlu hərbi əməliyyat şanlı Azərbaycan əsgərinin inamlı qələbəsi, Naxçıvan Muxtar Respublikasının işğal altında olan 11 min hektarlıq strateji ərazisinin azad edilməsi ilə nəticələnmişdir. Belə ki, şərti olaraq "Günnüt əməliyyatı" adlandırılan hərbi tədbirlər çərçivəsində Milli Ordumuz Ermənistanın Naxçıvan Muxtar Respublikasına qarşı hücum planının icrasını qabaqlamış, Şərur rayonunun Günnüt kəndi, onun ətrafında olan strateji yüksəkliklər, digər mühüm mövqelər azad edilmiş, Írəvan-Kankəndi avtomobil yolu döyüşçülərimizin nəzarəti altına keçmişdir.

Bildiyiniz kimi Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə ötən ay - iyunun 26-da Bakının Azadlıq meydanında möhtəşəm hərbi parad keçirildi. Bu hərbi parad bir daha da bütün dünyaya göstərdi ki, ən müasir hərbi texnikalarla təchiz olunmuş peşəkar ordusu olan Azərbaycan Respublikasının müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə olan sədaqətində, Vətən sevgisindədir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev həmin hərbi paraddakı nitqində demişdir: "... Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilmir və bilməyəcək. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir. Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır".

İndi ordu ilə xalq arasındakı qarşılıqlı münasibət bütün ölkəmizdə olduğu kimi Daşkəsəndə də tam sağlam, əmin təməllər üzərindədir. Gənclərimiz vətənpərvərlik ruhunda tərbiyə olunurlar, rayonumuzda və ölkədə gedən ictimai-siyasi hadisələrə sağlam münasibət bəsləyirlər, bir-birinin ardınca uğurlar qazanırlar.

Daşkəsən rayonu işğal altında qalmış Kəlbəcər rayonu ilə 23 km, mənfur Ermənistanla 8 km həmsərhəddir. Bu amillər də daşkəsənli gənclərin vətənpərvərlik hislərini daha da coşdurur.

Daşkəsənli gənclər bütün dövrlərdə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasında yaxından iştirak ediblər, bu gün də həmin ənənə yüksək səviyyədə davam etməkdədir.

Ulu Öndər Heydər Əliyev siyasətinə hər zaman sədaqət nümayiş etdirən biz daşkəsənlilər dərindən inanırıq ki, Dövlət Başçımız möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan tarixi torpaqlarımız tezliklə yağı düşməndən azad olunacaq, məcburi köçkün və qaçın soydaşlarımız da öz dədə-baba yurdlarına qayıdacaqlar.

Mən bir daha da hərbi xidmətini başa vurub rayonumuza alnıaçıq, başıuca qayıtmış gənclərimizi, onların valideynlərini, bütün rayon ictimaiyyətini bir daha da ürəkdən təbrik edirəm, gənclərimizə sağlam uzun ömür, gələcək həyatlarında uğurlar və xoşbəxtlik arzulayıram.

Yaşasın Müstəqil Azərbaycanın Milli Ordusu!

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevə eşq olsun!

Çıxış edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin rəisi mayor İxdiyar Əhmədov isə ölkəmizdə ordu quruculuğu sahəsində qazanılmış uğurlardan söhbət açıb. Vətəni göz bəbəyitək qorumağın müqəddəs və məsuliyyətli vəzifə olduğunu deyən bölmə rəisi düşməndən qat-qat üstün olan ordumuzun doğma torpaqlarımızın keşiyində daim ayıq-sayıq dayandığını, hərb işinin sirlərinə mükəmməl yiyələndiklərini, Dövlət Başçımızın rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyünün möhkəm qorunduğunu diqqətə çatdırıb.

Tərxis olunmuş çağırışçılar adından çıxış edən Vüsal Cəfərov isə göstərilən diqqətə, yaradılan hər cür yüksək şəraitə görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlıq bildirib.

Daha sonra Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev Silahlı Qüvvələrimizin sıralarından tərxis olunmuş rayon gənclərinə hərbi biletləri təqdim etdi, onlara hədiyyələr verdi.

Həmin gənclər rayon Məşğulluq Mərkəzi tərəfindən işlə təmin olunmaları üçün qeydiyyata götürüldülər.

Tədbir məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiya ilə başa çatıb.

Elmar ƏLİYEV
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

DAŞKƏSƏNDƏ "GƏNCLƏRİN YARADICILIQ EMALATXANASI" BEYNƏLXALQ DÜŞƏRGƏSİ

20-27 iyul il tarixlərdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı və MDB-nin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun təşkilati dəstəyi ilə Daşkəsən Gənclərin Təlim və İstirahət Mərkəzində MDB iştirakçı dövlətləri gənclərinin iştirakı ilə "Yaradıcılıq emalatxanası" adlı beynəlxalq düşərgə təşkil olunub.

Ötən illərdə keçirilən "Yaradıcılıq emalatxanası-1" (2016) və "Yaradıcılıq emalatxanası-2" (2017) layihələri respublika gənclərini əhatə edirdisə, artıq layihə beynəlxalq miqyasda keçirilməyə başlayıb. Layihənin keçirilməsində məqsəd MDB iştirakçı dövlətləri arasında mədəni əlaqələrin möhkəmləndirilməsi, gənclərdə öz doğma mədəniyyətindən fərqli mədəniyyətlərə tolerant münasibətin formalaşdırılması, Azərbaycan mədəniyyəti və incəsənətinin təbliği, yeni nəsil yaradıcı gənclərin yetişdirilməsi, onlar arasında mədəni mübadilənin möhkəmləndirilməsidir.

Təlimlərin ilk günü Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev düşərgənin qonağı olmuş, gəncləri salamlayaraq təlim prosesini izləmiş və düşərgənin işinə uğurlar arzulamışdır.

Düşərgədə Azərbaycan gəncləri ilə yanaşı, Rusiya, Belarus, Moldova, Qazaxıstan, Qırğızıstan və Tacikistandan olan istedadlı və yaradıcı gənclər iştirak ediblər.

20 iyul tarixində Bakıya səfər edən iştirakçılar növbəti gün Daşkəsən rayonuna yola düşüblər. İyulun 21-dən "Yaradıcılıq emalatxanası"nda təlimlərə start verilib. Bir həftə ərzində yaradıcı gənclər "Milli musiqi alətləri", "Rəqs", "Estrada ifası", "Dekorativ-tətbiqi sənət", "Kulinariya" və "Teatr" kimi incəsənət sahələrində təlim və ustad dərsləri keçərək, həm də Azərbaycan mədəniyyəti ilə tanış olublar.

Xarici qonaqlar Azərbaycan mədəniyyətini öyrənməklə yanaşı öz ölkələrinin mədəniyyətlərini də nümayiş etdirmişlər. Bu məqsədlə hər gün bir ölkənin yaradıcılıq gecəsi təşkil olunmuşdur.

İyulun 27-də isə düşərgənin başa çatması münasibətilə Mərkəzin stadionunda açıq havada "Qala konsert" və "Sərgi" təşkil olunmuşdur. Konsertdə Rayon İcra Hakimiyyətinin məsul işçiləri, Gənclər və İdman Nazirinin müavini İntiqam Babayev və ictimaiyyət nümayəndələri, sakinlər, KİV mənsubları iştirak ediblər.

"Qala" konsert zamanı belarus, qazax, qırğız, moldova, rus və tacik gəncləri ölkələrinin milli musiqi alətlərində "Sarı gəlin" musiqisini səsləndirmiş, öz dillərində və Azərbaycan dilində mahnılar oxumuş, "Bayram", "İgidlər", "Naz eləmə" və "Yallı" kimi milli rəqslərimizi məharətlə ifa etmiş, bişirdikləri Azərbaycan mətbəxinin inciləri sayılan düşbərə, qutab, xəngəl, şəkərbura, qurabiyə, paxlava kimi xörək və şirniyyatları, xalçaçılıq sənətimizin sirlərinə yiyələnərək atdıqları ilk ilmələri nümayiş etdirmiş, M.F.Axundzadə yaradıcılığından "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyasından kiçik bir səhnəcik göstərmişlər.

Konsertin sonunda Azərbaycan Respublikası Gənclər və İdman Nazirinin müavini İntiqam Babayev ilk dəfə Daşkəsən rayonunda keçirilən beynəlxalq düşərgənin təşkilində yaradılmış şəraitə, verdiyi dəstəyə görə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevə öz dərin minnətdarlığını bildirmiş, düşərgədən vətənlərinə geri dönən gənclərin özləri ilə Azərbaycandan kiçik bir parça aparacaqlarına əminliyini vurğulamışdır.

Rayon İcra Hakimiyyəti Başçısının müavini Cavanşir Qocayev də çıxış edərək qonaqları salamlamış, bu cür beynəlxalq səviyyəli tədbirlərin rayonumuzda keçirilməsinin mühüm əhəmiyyətini qeyd etmiş, növbəti belə layihələrin işğal altında olan Şuşada, Xankəndində, Qarabağda təşkil olunmasını arzulamışdır.

Vüqar MƏMMƏDOV
RİHBA-nın İnformasiya təminatı və təhlil sektorunun müdiri

DAŞKƏSƏN RAYONUNDA LEYSAN YAĞIŞLARI NƏTİCƏSİNDƏ YARANMIŞ SEL SULARI ÇOX CİDDİ ZİYAN VURMUŞDUR

24 iyun 2018-ci il tarixdə saat 20:00 radələrində Daşkəsən rayonu ərazisində baş vermiş təbii fəlakət, güclü leysan yağışları səbəbindən yaranmış sel suları yol, elektrik, qaz və rabitə təsərrüfatlarına, sakinlərin fərdi yaşayış evlərinə və şəxsi təsərrüfatlarına, avtomobillərinə, ərazidə olan sosial obyektlərə, yaylaqlarda vətəndaşların mal-qarasına çox ciddi ziyan vurmuşdur.

Rayonun Təzəkənd, Pirverdilər, Rəsullu, Xoşbulaq, Qazaxyolçular, Qaraqullar kəndləri ərazisindəki körpülərə, yollara və obyektlərə daha çox zərər dəymişdir.

Sel suları Təzəkənd kəndi ərazisində suötürücü qurğuları, körpülərini tamamilə dağıtmış, Xoşbulaq kəndi ərazisində kəndin iki hissəsi arasında olan ermənilərlə təmas xəttində yerləşən, strateji dövlət əhəmiyyətli "N" saylı hərbi hissəyə aparan körpünü tamamilə uçurub dağıtmışdır.

Sel-suları əsasən çay kənarına yaxın ərazilərdə yerləşən bir çox fərdi yaşayış evini yararsız hala salmış, əksər sosial obyektləri və evləri su basmışdır.

Qaraqullar kəndi ərazisində sel-suları kəndlərarası avtomobil yolunun xeyli hissəsini sıradan çıxarmış, bir neçə avtomobili kənddən keçən çay sularının axınına salaraq aparmışdır.

Çoxsaylı kənd yaşayış məntəqələrinin rayon mərkəzi ilə gediş-gəliş - avtomobil yol əlaqəsi kəsilmişdir. Sel-suları xeyli elektrik və rabitə dayaqlarını, 5 ədəd elektrik transformatorunu sıradan çıxarmışdır. Bir çox ərazilərdə dağlardan iri qaya parçaları, palçıqlı torpaq kütləsi avtomobil yollarına tökülmüş, həmin yollar yararsız vəziyyətə düşərək nəqliyyatın hərəkəti tam dayanmışdır.

Baş vermiş hadisə ilə əlaqədar dərhal Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev operativ qərargah yaratmış, aidiyyəti idarə, müəssisə, xidmət təşkilatlarının, səhiyyə və hüquq-mühafizə orqanlarının rəhbərləri ilə birgə hadisə yerlərində baxış keçirmişdir. Dəymiş ziyanların qısa müddətdə aradan qaldırılması məqsədilə aidiyyəti nazirliklər məlumatlandırılmışdır.

Kəndlərdə xəsarət alan sakinlərə Rayon Mərkəzi Xəstəxanası tərəfindən ilkin tibbi yardım göstərilmişdir. İnsan tələfatı olmamışdır.

Rayonun daxili imkanları hesabına dəymiş ziyanların aradan qaldırılması üçün aidiyyəti üzrə işlər görülmüşdür və hazırda da həmin işlər davam etdirilir.

DAŞKƏSƏNDƏ "26 İYUN - NARKOMANİYA VƏ NARKOTİKLƏRİN QEYRİ-QANUNİ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ GÜNÜ"NƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

İyunun 22-də Daşkəsəndə "26 iyun - Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Beynəlxalq Mübarizə Günü"nə həsr olunmuş tədbir keçirilib.

Rayon rəhbərliyi, ictimaiyyət, hüquq mühafizə orqanları təmsilçilərinin, təhsil, səhiyyə, mədəniyyət işçilərinin, fəal gənclərin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul işçisi Elmar Əliyev ötən dövrdə Rayon İcra Hakimiyyəti Başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Namiq Süleymanovun sədrliyi ilə fəaliyyət göstərən Daşkəsən rayon Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Komissiyasının gördüyü işlərdən danışıb, narkomaniya və onun cəmiyyətdə törətdiyi sağalmaz fəsadlar haqqında ətraflı söhbət açıb.

Narkomaniyanın bütün dünyanı narahat edən problem olduğunu qeyd edən E.Əliyev çıxışında deyib ki, narkomaniyanın daha geniş insan kütləsini öz təsiri altına almaması üçün ölkəmizdə də daimi olaraq maarifləndirmə işlərinin aparılmasına böyük ehtiyac vardır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş 2013-2018-ci illəri əhatə edən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"ın icrası ilə bağlı Dövlət Komissiyası, müvafiq nazirlik, komitə və təşkilatlar tərəfindən mühüm işlər görülmüşdür. Lakin Azərbaycanda son illərdə bu istiqamətdə aparılan uğurlu işlərə baxmayaraq, narkomaniyaya meylli insanların sayında artım müşahidə olunur. Narkotizmlə mübarizədə bütövlükdə cəmiyyətin, dövlətin, xalqın, nəhayət hər bir şəxsin fərdi və birgə fəaliyyətinə, barışmaz münasibətinə və əməli köməyinə böyük ehtiyac vardır.

E.Əliyev çıxışının sonunda qeyd edib ki, bu sahədə təxirəsalınmaz qabaqlayıcı işlərin aparılması, kəsərli proqram və layihələrin icrası, eləcə də maarifləndirici tədbirlərin həyata keçirilməsi vacibdir. Narkomanlıq eynən narkotiklərin qanunsuz dövriyyəsinin coğrafiyası kimi sərhəd tanımır. Bu dəhşətli xəstəlik dinindən, dilindən, irqindən, sosial vəziyyətindən və s. asılı olmayaraq hamı üçün eyni dərəcədə təhlükəlidir. O, cinayətkarlıq, zorakılıq və sosial düzənsizlik yaradır, QİÇS-in sürətlə artmasına təkan verir, sosial-iqtisadi inkişafı səngidir, ailə və icmaları dağıdır, sosial partlayışlara sürükləyir.

Toplantıda çıxış edən rayon Polis Şöbəsinin əməkdaşı Ceyhun Rzayev Rayon Polis Şöbəsinin narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı apardığı əməliyyat-axtarış, mübarizə, profilaktika tədbirləri barədə, Rayon Mərkəzi Xəstəxanasında narkomanlığa düçar olmuş şəxslərin qeydiyyata alınması, onlarla müvafiq profilaktiki və müalicəvi tədbirlərin həyata keçirilməsi haqqında məlumat verib.

Daha sonra tədbirdə RİH-nin Hüquq şöbəsinin məsləhətçisi Sənan Həsənov, Gənclər və İdman idarəsinin rəisi Samir Həsənov, Təhsil Şöbəsinin müdir müavini Rizvan Ələsgərov çıxış edərək "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"ın rayonda uğurla həyata keçirildiyini, bundan sonra da geniş ictimaiyyətin bu bəşəri bəla ilə mübarizəyə cəlb olunmasının vacibliyi bildirmiş, narkomaniyanın qarşısının alınması üçün hamılıqla mübarizə aparılmalı olduğunu vurğulayıblar.

Elmar ƏLİYEV
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

DAŞKƏSƏNLİ MƏKTƏBLİ DİPLOMA LAYİQ GÖRÜLÜB

1 iyun "Uşaqların Beynəlxalq müdafiəsi günü" münasibətilə Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNİCEF-in birgə təşkilatçılığı əsasında Milli Məclisdə uşaqların iştirakı ilə "Mənim səsim - mənim hüquqlarım: Parlamentdə müzakirə" mövzusunda tədbir keçirilib. Milli Məclisin foyesində uşaqların əl işlərindən ibarət "Mənim Azərbaycanım" adlı sərgi də nümayiş olunub.

"Daşkəsən abidələri" mövzusu üzrə çəkdiyi silsilə rəsm əsərləri ilə rayonumuzu təmsil edən Daşkəsən şəhər A.Mürsəlov adına 2 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Qurbanlı Aysun Elçin qızı uğurlu iştirakına görə Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəxri diplomuna layiq görülüb.

İyulun 3-də fəxri diplomu və öz adından qiymətli hədiyyəni Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev Aysun Qurbanlıya təqdim edərək ona uğurlarının davamlı olmasını arzulayıb.

Zaur MƏMMƏDOV
Rayon Təhsil Şöbəsinin müdiri

DAŞKƏSƏNDƏ TALASSEMİYALI UŞAQLAR ÜÇÜN QANVERMƏ AKSİYASI

İyunun 7-də Daşkəsəndə Səhiyyə Nazirliyinin B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun nəzdindəki Mərkəzi Qan Bankı talassemiya xəstəliyindən əziyyət çəkən xəstə uşaqlar üçün qanvermə aksiyası keçirib. Aksiyasının keçirilməsində əsas məqsədlərdən biri də tədarük olunan qan ehtiyatını artırmaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi "Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramına uyğun olaraq keçirilən bu nəcib və humanist xarakterli aksiyaya rayonda fəaliyyət göstərən bütün idarə, müəssisə və təşkilatların işçiləri, gənclər, o cümlədən ictimaiyyət nümayəndələri yüksək həvəslə və könüllü olaraq qoşulublar.

Respublika Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibbi briqadanın həkim-hematoloqları tərəfindən hər bir donorun sağlamlığı onlardan qan analizi götürülərək əvvəlcədən müəyyənləşdirilib.

Aksiyada iştirak edənlər qan xəstəliklərindən əziyyət çəkən insanlar üçün könüllü qan verməyin xeyirxah və savab iş, o cümlədən vətəndaşlıq borcu olduğunu bildiriblər.

Səhər saat 10-dan axşam 17-dək davam etmiş aksiyada 300 nəfərdən çox könüllü müayinədən keçib, onların 70 nəfərindən qan götürülüb.

Yığılan qan ehtiyatı xüsusi laboratoriyada müayinə olunduqdan sonra talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkənlər üçün istifadə ediləcəkdir.

Mirzəkərim TAĞIYEV
Rayon Mərkəzi Xəstəxanasının baş həkimi

DAŞKƏSƏNDƏ "AZƏRBAYCAN VƏ GÜRCÜSTANIN SƏRHƏD BÖLGƏLƏRİNDƏ TURİZM POTENSİALININ ARTIRILMASI" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ PRAKTİK SEMİNAR UĞURLA YEKUNLAŞMIŞDIR

İyunun 20-də Daşkəsən Rayon Heydər Əliyev Mərkəzində KODA İcma Təhsil Mərkəzi (Gürcüstan) və "Gəncə Regional Qadın Mərkəzi" İctimai Birliyinin birgə həyata keçirdikləri "İnkişaf və Əməkdaşlıq üçün Vətəndaş Cəmiyyəti: Azərbaycan və Gürcüstan sərhəd bölgələrində turizm potensialının artırılması" layihəsi çərçivəsində təlim keçirilmişdir.

Avropa Birliyinin maliyyə dəstəyi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin idarəçiliyi ilə həyata keçirilən layihə Şərq Tərəfdaşlığı ölkələrinin Ərazi Əməkdaşlıq Proqramının Azərbaycan-Gürcüstan arasında Ərazi Əməkdaşlıq Proqramı çərçivəsində icra olunur. Layihənin əsas məqsədi ümumi sosial və iqtisadi inkişaf problemlərinin birgə həll yollarına dəstək vermək üçün yerli icra hakimiyyəti orqanları, icmalar və qeyri-hökumət təşkilatları arasında qarşılıqlı əlaqələrin və biznes imkanlarının gücləndirilməsi yolu ilə yaşayış şəraitinin yaxşılaşdırılması, Azərbaycan və Gürcüstanın turizm təşəbbüsləri haqqında daha çox məlumatların əldə edilməsidir.

Təlimə Rayon İcra Hakimiyyətinin əməkdaşları, turizm sektorunda çalışanlar, hotel işçiləri, inzibati ərazi dairələri üzrə nümayəndələr, kənd bələdiyyələri və bələdçi olmaq istəyən gənclər qatılıblar.

Layihənin rəhbəri Məleykə Əlizadə və eksperti Arzu Həsənov çıxışlarında Daşkəsən rayonunda turizmin bugünkü vəziyyətini təhlil etmiş, iqtisadiyyatda turizmin rolu haqqında ümumi məlumat vermiş, turizmin inkişafını şərtləndirən təbii, sosial-iqtisadi, demoqrafik, ekoloji xüsusiyyətlərdən, regionlarda turizm sahəsinin inkişafı məqsədi ilə mövcud problemlərin müəyyən edilməsi və onların həlli yollarından, Daşkəsənin turizm potensialından, ehtiyatların qiymətləndirilməsindən, reklam-informasiya təminatının həyata keçirilməsindən, peşəkar bələdçilərin hazırlanmasından, hostellərin yaradılmasının həm də əhalinin məşğulluq, sosial və iqtisadi problemlərinin həllinə dəstək verəcəyindən söhbət açmışlar.

Digər çıxış edənlər isə Daşkəsənin tarix-mədəniyyət, təbiət abidələrinin, zəngin dağlıq landşaftının, flora və faunasının bölgədə turizmin inkişaf etdirilməsi üçün xüsusi böyük çəkiyə malik olduğunu qeyd etmişlər.

Təlimin sonunda kənd turizmini inkişaf etdirmək üçün müvafiq pilot kəndlər seçilmiş, işçi qrupu yaradılmışdır.

Sahib ƏHMƏDOV
RİHBA-nın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri

ƏMƏKDAR MÜƏLLİM DUMAN MAHMUDOVA - 70

1 iyul 2018-ci il... Qızmar yay günü...

Həyəcanla pilləkanları yuxarı qalxıram... 1-ci sinfə ilk qədəmlərini qoyan şagird kimi əlimdə qızılgül dəstəsi mənə ana dilimdə - Azərbaycan dilində yazıb-oxumağı öyrətmiş müəllimim Duman xanım Mahmudovanın qapısının zəngini çalıram...

Və budur... Qapı açılır, həminki sevinc dolu baxışlar, qayğıkeş, mehriban, neçə-neçə layiqli nəsillər yetişdirən və dünyagörmüş bir insan mənə bütün həyəcanımı unutdurur. Sanki öz doğma evimizə daxil oluram. İllərdir rəhbərlik etdiyi Azərbaycan dili kabinetində olduğu kimi mənzilində təmizlik, təravət, ziyalı səliqəsi duyulurdu.

Adətlərimizə uyğun olaraq dərhal məni çay süfrəsinə qonaq etdi və söhbətə başladıq.

Əvvəlcə müəllim peşəsinin şərəfli olduğundan, məktəbin məzunlarından və keçmiş xatirələrindən söz açdı. Həmin söhbətin bir hissəsini oxucularla olduğu kimi bölüşmək istəyirəm:

- Əzizimiz Duman müəllim, bu gün sizin 70 yaşınız tamam olur. Bu münasibətlə sizi səmimi qəlbdən təbrik edir, sizə uzun ömür, can sağlığı arzulayırıq.

- Çox sağ ol, oğlum. Nə xoş bizlərə ki, öz yetirmələrimiz ömrümüzün gözəl anlarında bizi unutmur, yad edir, hətta hansısa sahənin işçisi kimi özünü bizə təqdim edirlər...

- 70 illik ömür, 48 illik pedaqoji təcrübə, tərifnamələr, təltiflər və müəllim üçün ən yüksək ad - "Əməkdar müəllim" adı...

- Özüm barədə danışmaq istəyirəm. Bu gün nədənsə buna ehtiyac duyuram. Mən Göyçə mahalının Zod kəndində doğulmuşam. Orta məktəbi fərqlənmə ilə bitirdim. Sonra keçmiş Həsən bəy Zərdabi adına Pedaqoji İnstitutun Azərbaycan dili və ədəbiyyat müəllimliyi fakültəsinə qəbul olundum. İlk arzum hüquqşünas olmaq idi, amma elə gətirdi ki, müəllim oldum. Pedaqoji fəaliyyətimə Xanlar (indiki Göygöl) rayonunda başlamışam. Hazırda bu fəaliyyətimə Daşkəsən rayonunda Anar Mürsəlov adına 2 nömrəli tam orta məktəbdə davam edirəm.

Bəli, 48 illik təcrübədə, sözsüz ki, çətinliksiz və sınaqlarsız tərifnamələrə, təltiflərə və ən nəhayət müəllim üçün şərəfli olan "Əməkdar müəllim" adına layiq görülmək mümkün deyildi. Çətinliklər və sınaqlar dedikdə mən çox şeyi: müxtəlif seminar və tədbirlərdə iştirak etməyi, daim öz üzərində işləyərək qabaqcıl təcrübəni mənimsəməyi, yaradıcı təfəkkürlə aparacağın dərslərin pedaqoji tamlığına nail olmağı və ən əsası isə şagirdlərinin rəğbət və sevgisini qazanmağı nəzərdə tuturam.

2007-ci il oktyabr ayının 2-si idi. Beynəlxalq Müəllimlər Gününün qeyd olunmasına üç gün qalmışdı. Televiziya ilə təltif edilənlərin sırasında öz adımı da eşitdim. Bu anın sevincini sözlərlə ifadə etmək mümkün deyil. Bu kiçicik zəhmətimə verilmiş dəyərə, fəxri ada görə ölkə Başçımıza, möhtərəm cənab İlham Əliyevə minnətdaram.

- Duman müəllim, "Əməkdar müəllim" kimi, ömrünü-gününü bu peşəyə həsr etmiş təcrübəli bir el pedaqoqu kimi gənc mütəxəssislərə əsl müəllim olmağın ən vacib olan hansı xüsusiyyətini tövsiyə edərdiniz?

- Bunun çox sadə bir düsturu var: şagirdlərini sev və özünü onlara sevdir. Çünki şagirdlərin səni sevdiyi halda tədris etdiyin fənnə də maraq və sevgi ilə yanaşırlar. Müəllim jurnalı götürüb sinif otağına getməzdən qabaq onun sevgisi və saf vicdanı sinif otağına daxil olmalıdır. İstər elmi olsun, istər fəlsəfi, istər dini olsun, istərsə də siyasi və ya iqtisadi, fərqi yoxdur, heç bir fəaliyyət sevgisiz və vicdansız yüksək səviyyədə tamamlana, öz yüksək mərtəbəsinə çata bilməz.

- 48 illik pedaqoji fəaliyyət... Elə anlar olubdurmu ki, "artıq bəsdir, yoruldum" demisiniz?

- Əsla. Məni yaşadan məktəb və şagirdlərimdir. Məktəbə gedəcəyim günün hər açılan sabahı sanki ömrümdə açılan ilk bahardır.

- Hal-hazırkı təhsilin məzmunundan və rayonumuzun təhsil səviyyəsindən razısınızmı?

- Sovet təhsili ilə hazırkı təhsil arasında böyük fərq vardır. Mən hər iki sistemin təcrübəsini keçmişəm. 21-ci əsr İKT əsri, kompüter əsridir. Sözsüz ki, təhsildə də bu amil özünü göstərməlidir. İnsan yaşadıqca inkişaf etməlidir. Düzdür, yeni sistemə keçid müəyyən çətinliklər yaradır. Amma bu zərurətdir, zamanın tələbidir. Şükürlər olsun ki, Azərbaycan müəllimi bu keçidlərdən həmişəki kimi üzü ağ çıxır. Baxmayaraq biz ucqar dağ rayonunda yaşayırıq, amma rayonumuzda təhsilin səviyyəsi digər rayon və şəhərlərin təhsil səviyyəsindən heç də geri qalmır. Xüsusən qeyd etmək istərdim ki, ali məktəblərə qəbul olan məzunlarımızın sayı ildən-ilə artır. Onların arasında 600 balı keçənlərin sayı yetərincədir.

- Bəlkə də çox yayılmış, amma çoxları üçün maraqlı olaraq qalan bir sualı vermək istərdim. Yenidən dünyaya gəlsəydiniz müəllim olardınızmı?

- Şübhəsiz! Mən öz peşəmlə qürur hissi duyuram və müəllim peşəsinə sahib olmaq istəyənlərin sayının artmasını arzu edirəm.

– Müsahibəniz üçün sizə bir daha da təşəkkür edirəm, çox sağ olun!

– Siz sağ olun! Var olun ki, mənin üçün əziz olan bu gündə də məni unutmamısınız.

Müəllim gənc nəslin mənəvi aləminin memarı, cəmiyyətin etibar etdiyi şəxsdir. Cəmiyyət ən əziz, ən qiymətli sərvətini - uşaqları, öz ümidini, gələcəyini müəllimə etibar edir. Heç bir təmənna ummadan savadlı, layiqli insan yetişdirmək istəyən, adına və peşəsinə hörmət gətirən, həyatını bütünlüklə dəyərli işinə həsr etmiş müəllimlərimizdən olan Duman xanım Mahmudovaya uca Allahdan sağlam uzun ömür diləyir, 70 yaşınız mübarək olsun deyirik.

Söhbətləşdi: Nicat DİLQƏMLİ

DAŞKƏSƏNDƏ ƏNƏNƏVİ "SON ZƏNG" GÜNÜ QEYD OLUNUB

İyunun 14-də respublikamızın bütün guşələrində olduğu kimi Daşkəsən rayonun da tam orta məktəblərində ənənəvi "Son zəng" günü təntənəli və yüksək təşkilatçılıqla qeyd olunub.

Rayonun 23 tam orta məktəbində keçirilən tədbirlərdə məktəblərin kollektivləri, valideynlər və şagirdlər "Son zəng"in bütün məzunların və iştirakçıların uzun illər yaddaşında qalacaq əlamətdar hadisəyə çevrilməsi üçün böyük ruh yüksəkliyi ilə hazırlaşıblar.

Daşkəsənin tam orta məktəblərində təhsil alan şagirdlərdən 187 nəfəri bu il məzun adını qazanıb.

Əvvəlcədən tərtib edilmiş qrafikə uyğun olaraq rayonun ictimai-siyasi, sosial-iqtisadi həyatında fəallıq göstərən nümayəndələr "Son zəng" şənliklərində yaxından iştirak ediblər. Tədbirlərdə ölkəmizdə təhsilin inkişafı istiqamətində görülən işlər, bu sahədə Daşkəsəndə həyata keçirilən layihələr barədə danışılmış, müstəqil həyata qədəm qoyan məzunlara uğurlar, ölkəmiz və xalqımız üçün layiqli övlad olmaları, sentyabrda məktəbə gələcək, sinif otaqlarına ilk kövrək addımlarını atacaq birincilərə mübarək qədəmlər, bol uğurlar arzulanmışdır. Xüsusilə qeyd edilmişdir ki, dövlətimizin Başçısı möhtərəm İlham Əliyev tərəfindən xalqımızın gələcəyi olan uşaqlara və gənclərə göstərilən diqqət və qayğı, onların sağlam və bilikli böyüməsi istiqamətində həyata keçirilən işlər Daşkəsən rayonunda da öz əksini tapmışdır. Son illərdə rayonda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində ən ucqar kəndlərdə yeni-yeni məktəb binaları tikilmiş, əsaslı təmir edilmiş, lazımi avadanlıqla təchiz olunmuş və təhsil müəssisələrində çalışan müəllim-pedaqoji heyətin diaqnostik qiymətləndirilməsi aparılaraq məvacibləri artırılmışdır. Bu da təhsilin keyfiyyətinə öz müsbət təsirini göstərmişdir.

Ənənəvi "Son zəng" tədbirlərində şagirdlərin hazırladığı bir-birindən maraqlı ədəbi-bədii kompozisiyalar nümayiş olunmuş, on birincilərin inamlı çıxışları, mənalı ürək sözləri bu gənclərin Vətənin layiqli övladları olacağına inamı daha da artırmışdır.

"Son zəng" çalındıqdan sonra sehrli "Bilik açarı"nı birincilərə verən məzunlar məktəbə əlvida demişlər.

Nicat DİLQƏMLİ

DAŞKƏSƏNDƏ "GƏLƏCƏYƏ KÖRPÜ" GƏNCLƏRİN İCTİMAİ BİRLİYİNİN GƏNCLƏRLƏ KEÇİRDİYİ GÖRÜŞ MARAQLA QARŞILANIB

İyunun 28-də Avropa Komissiyası tərəfindən Erasmus+ Gənclər Fəaliyyətdə Proqramının Rəsmi Əlaqə Mərkəzi elan olunan "Gələcəyə Körpü" Gənclər İctimai Birliyi daşkəsənli gənclər üçün maarifləndirici seminar keçirib.

Seminarda Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul işçisi Elmar Əliyev, Gənclər və İdman İdarəsinin rəisi Samir Həsənov, "Gələcəyə Körpü" Gənclər İctimai Birliyinin icraçı direktoru Hüseynxan Hacızadə və fəal gənclər iştirak ediblər.

Giriş nitqi söyləyən Elmar Əliyev Mərkəzin işinə uğurlar arzulayıb və Daşkəsən gənclərini Proqramın imkanlarından daha çox yararlanmağa çağırıb.

Mərkəzin koordinatoru Hüseynxan Hacızadə Daşkəsən gənclərinə Erasmus+ Gənclər Fəaliyyətdə Proqramının Rəsmi Əlaqə Mərkəzinin nə üçün yaradılması, gənclər və gənclər təşkilatları üçün hansı yardım və məsləhətlər təklif etdiyi haqqında geniş məlumat verib.

Sonda gənclər Məlumat Mərkəzindən olan gözləntilərini, ehtiyaclarını və verə biləcək töhfələri müəyyənləşdirmək məqsədilə müzakirələr aparıblar.

Elmar ƏLİYEV
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISI TƏRƏFİNDƏN 2018-Cİ İLİN AVQUST AYINDA YERLƏRDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULLARININ KEÇİRİLMƏSİ

Q R A F İ K İ

Sıra №-si	Qəbulların keçiriləcəyi yaşayış məntəqələrinin adı	Qəbulların keçiriləcəyi yer	Nəzərdə tutulan keçirilmə tarixi	Qəbulda RİHBA-dan iştirak etməsi nəzərdə tutulan məsul şəxslər
1.	Yolqullar kəndi	Kənd ərazisində açıq havada	01.08.2018-ci il saat 11:00	S.Əhmədov, E.Məmmədov
2.	Zivlan kəndi	Kənd ərazisində açıq havada	08.08.2018-ci il saat 11:00	M.Yolçuyev, V.Məmmədov
3.	Qazaxlı kəndi	Kənd ərazisində açıq havada	15.08.2018-ci il saat 11:00	S.Əhmədov, V.Məmmədov
4.	Gurbulaq kəndi	Kənd ərazisində açıq havada	29.08.2018-ci il saat 11:00	M.Yolçuyev, S.Əhmədov

QEYD: Qəbulda rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak edəcəklər.

DAŞKƏSƏN RAYON PROKURORU TƏRƏFİNDƏN YERLƏRDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULLARININ HƏYATA KEÇİRİLMƏSİ

C Ə D V Ə L İ

Sıra №-si	Qəbulların keçiriləcəyi yaşayış məntəqələrinin adı	Qəbulun tarixi	Qəbulun keçiriləcəyi yer	Qəbulu həyata keçirən şəxs
1.	Yuxarı Daşkəsən qəsəbəsi	11.08.2018-ci il saat 15:00	Keçmiş məktəbin binası	Prokuror
2.	Quytul kəndi	25.08.2018-ci il saat 15:00	İcra nümayəndəliyinin inzibati binası	Prokuror

ELAN

Daşkəsən şəhər Nizami küçəsi bina 20, mənzil 48-in Abbasova Məlahət Musa qızının adına verilmiş 29.08.1993-cü il tarixli 343 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev başda olmaqla, Rayon İcra Hakimiyyətinin kollektivi

ŞƏHİD ATASI İSLAM MƏMMƏDOVUN

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirlər.

***

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev başda olmaqla, Rayon İcra Hakimiyyətinin kollektivi Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Sektor müdiri - baş mühasibi Kazım Abdullayevə

ATASI SƏTTAR ABDULLAYEVİN

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirlər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev başda olmaqla, Rayon İcra Hakimiyyətinin kollektivi RİHB-nin Daşkəsən şəhər İƏDÜN-nin baş mühasibi Şahmalı Ələkbərova

QARDAŞI YAŞAR ƏLƏKBƏROVUN

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirlər.

Baş redaktor: Elmar Əliyev
Telefon: (055) 803-03-17
(022) 215-52-83

Redaksiyanın ünvanı:
Daşkəsən şəhəri, H.Əliyev prospekti 2. "Daşkəsən" qəzetinin hesab nömrəsi: Kapital Bank Daşkəsən filialı h/h 33080019448400214184, VÖEN 4900026031, İndeks 66896 Lisenziya № 022637

Qəzet 1999-cu ildən Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Qeydiyyat № B437 Lisenziya seriya AB №022637.

Qəzet "Daşkəsən" qəzetinin kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı"nın mətbəəsində çap olunmuşdur.

Sifariş: 2379
Tiraj: 500